# Xalq qəzeti

Xalqın qəzeti!

№ 102 (30796) 18 may 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dünyanı ovsunlayan xarizma

*Avropa Siyasi Birliyinin Tirana Sammiti*
*Prezident İlham Əliyevin diplomatik məharəti ilə yadda qaldı*



**Diplomatiyanın getdikcə daha çox şahmat oyununa bənzədildiyi bir dövrdə öz yerini müəyyən etmək və möhkəmləndirmək, çətin beynəlxalq şəraitdə belə hədəflərə çatmaq bacarığı hər liderə nəsib olmur.**

Azərbaycan Prezidenti İlham Əliyevin də qatıldığı Avropa Siyasi Birliyinin (ASB) Tirana Zirvə görüşünü Azərbaycanın müasir tarixində ən mühüm diplomatik qələbələrdən birinin əldə edildiyi Praqa Sammitindən sonra uğurla həyata keçirdiyi xarici siyasət xəttinin məntiqi davamı saymaq olar.

Bugünədək ASB-nin dörd zirvə toplantısı keçirilib. Sonuncusu 2024-cü ildə Böyük Britaniyada baş tutub və Prezident İlham Əliyev Birləşmiş Krallığın Baş naziri Kir Starmerin dəvəti ilə orada iştirak edib. Biz Tirana Sammitinin Azərbaycan üçün tarixi əhəmiyyətini tam başa düşmək üçün gərək 2022-ci ilin payız hadisələrinə qayıdaq. Həmin ilin oktyabrında Praqa Sammitində 44 ölkənin dövlət və hökumət başçıları iştirak ediblər. Bu sammit Azərbaycanın siyasi salnaməsinə beynəlxalq aləmdə yeni çalarların yer aldığı bir məqam kimi düşüb. Məhz iki il səkkiz ay bundan əvvəl Azərbaycanın "kollektiv Qərb" adlı bədxahının düzüb-qoşduğu məkrli hücum "taktikası" "qrossmeyster"in ustad gedişləri ilə pozuldu.

Ermənistan siyasi rəhbərliyinin, revanşistlərin, eləcə də, rusiyalı ekspertlərin Praqada qəbul edilmiş bəyanatı tənqid etmələri təsadüfi deyildi. Çünki həmin sənəd Qarabağda müvəqqəti yerləşən rus sülhməramlılarının çıxarılmasını sürətləndirdi. Zirvə toplantısı çərçivəsində dövlətimizin başçısının iştirakı ilə keçirilən görüşlər və onların yekun nəticəsi siyasi-diplomatik yolla imza atdığımız növbəti qələbəmiz oldu.

*(ardı 3-cü səhifədə)*

# Azad Qarabağ "smart Qarabağ"a çevrilir

**Energetika Nazirliyində işğaldan azad edilən ərazilərdə "yaşıl" texnologiyaların və enerji səmərəliyi tələblərinin tətbiqi ilə bağlı əlaqələndirmə və monitorinq üzrə İşçi Qrupunun 9-cu iclası keçirilib. Nazirlikdən verilən məlumatda bildirilir ki, iclasda İşçi Qrupunun sədri, energetika naziri Pərviz Şahbazov Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılan tikinti, bərpa-quruculuq layihələrindən bəhs edərək bu prosesdə "yaşıl enerji zonası" konsepsiyasının tətbiqinə xüsusi əhəmiyyət verildiyini vurğulayıb.**

doldurma məntəqələri, "ağıllı" skamyaların quraşdırılması, istilik izolyasiya materialları, habelə enerjiyə qənaət edən lampalardan istifadənin mövcud vəziyyətini əks etdirən göstəricilər diqqətə çatdırılıb.

Fərdi yaşayış evləri və inzibati-ictimai binalarda damüstü günəş panellərinin quraşdırılması ilə bağlı icra mexanizminə dair təqdimatda isə



Bu ərazilərdə enerji səmərəliyini, eləcə də bərpa olunan enerjidən istifadəni gerçəkləşdirən müasir yanaşmanın tətbiqinin genişlənməsi müsbət qiymətləndirilib. Burada günəş, külək və su elektrik stansiyalarının inşasının Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" kimi inkişafına töhfə verəcəyi qeyd olunub. İclasda Qarabağ və Şərqi Zəngəzurun 11 şəhər və kəndində cari il ərzində reallaşdırılan monitorinqlərin nəticələri barədə məlumat verilib, eləcə də günəş panelləri və kollektorları, LED əsaslı işıqlandırma qurğuları, elektrik texniki meyarlar, icra mərhələləri və layihənin genişləndirilməsi imkanlarından bəhs olunub. Şuşa şəhərində qazanxanaların enerji təchizatına dair fikir mübadiləsi aparılıb və bu istiqamətdə gələcək addımlar nəzərdən keçirilib.

*(ardı 8-ci səhifədə)*

# Tramp İsrail və Suriyanı dialoqa yönləndirir



Səhifə ⇨ 10

## Baburi şahzadəsi Xürrəm sultan Şahcahanın Səfəvi şahzadəsi Qəndəhari bəyimlə tale ortaqlığı



Səhifə ⇨ 9

# Bakıdan Astanaya qardaşlıq təbriki



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.**

Dövlətimizin başçısı Prezident Kasım-Jomart Tokayevə ad günü münasibətilə təbriklərini çatdıraraq, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev Kasım-Jomart Tokayevin rəhbərliyi ilə Qazaxıstanın dayanıqlı inkişafını və beynəlxalq səviyyədə nüfuzunun artdığını vurğulayıb.

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluğa və qardaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluqlarını ifadə edib və qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Hindistanın emosional qadağaları



Səhifə ⇨ 3

# Yersiz tərslik Paşinyanın aqibətini tərsləşdirir

*Ermənistan baş nazirinin Azərbaycanın legitim hüququnu gizli gündəmlə pozmaq cəhdləri*

**Rəsmi İrəvanın Bakı ilə ikitərəfli dialoqun gedişi və nəticələri barədə verdiyi açıqlamaların, bəyanat və müsahibələrin sülhdən yayınmaq cəhdləri olduğu hamıya məlumdur. Bunun başqa izahı yoxdur. Bu gün sülh sazişini dərhal imzalamağa hazır olduğunu deyən Nikol Paşinyan sabah gündəmə yeni tesizlər gətirməklə bu prosesin məntiqi sonluğa çatmasını ləngitməyə çalışır.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin baş nazir Paşinyanın Azərbaycanın İctimai televiziyasına müsahibəsi zamanı irəli sürdüyü iddialarla bağlı şərhində qeyd etdiyi kimi, Ermənistan tərəfi üçün beynəlxalq müqavilələrdə ərazi bütövlüyünə dəstək ifadə edilməsinin heç bir əhəmiyyətə malik olmadığı danılmaz faktdır: "Bunu sübut etmək üçün, Ermənistanın Alma-Ata Bəyannaməsinə qoşulması prosesini və bu razılaşmanı necə kobud şəkildə pozduğunu xatırlatmaq yerinə düşər. Ermənistan tərəfinin daim istinad etdiyi bu bəyannaməyə qoşulan zaman verdikləri qeyd-şərtləri, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa qarşı çıxan qüvvədə olan qanunvericilik aktlarının mövcudluğu hər kəsə məlumdur".

*(ardı 4-cü səhifədə)*



# Ağdam Muğam Mərkəzi: "Qarabağ bülbülləri"nin sənət yuvası



Səhifə ⇨ 11

# “Bakı Ürək Günləri” IX Beynəlxalq Konqresinin iştirakçılarına

**Hörmətli Konqres iştirakçıları!**

Sizi – Azərbaycan kardioloqlarını, kardiocərrahlarını və müxtəlif ölkələrdən respublikamızın paytaxtına gəlmiş alimləri “Bakı Ürək Günləri” IX Beynəlxalq Konqresinin öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə insanların sağlamlığı naminə nəcib fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

Artıq ənənəvi şəkil almış Konqresin Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunması xüsusi məna daşıyır. Ulu Öndər bütün fəaliyyəti boyu ölkəmizin səhiyyə sisteminin davamlı təkmilləşdirilməsi və yüksək standartlar səviyyəsində qurulması işinə dəyərli töhfələr vermişdir. Ötən müddətdə atılan mütərəqqi addımlar sayəsində Azərbaycan səhiyyəsi nailiyyətlərlə dolu bir yol keçmişdir.

İndi ölkəmizdə təbabətin müxtəlif sahələrinin inkişafı, o cümlədən kardiologiya elminin son yeniliklərindən bəhrələnməklə ürək-damar xəstəliklərinin ən müasir cərrahi üsullarla müalicəsi üçün lazımi şərait vardır. Dünyanın məşhur ürək mərkəzlərində aparılan mürəkkəb əməliyyatların yerli mütəxəssislərimiz tərəfindən uğurla gerçəkləşdirilməsi sevindirici haldır.

Təbabətin yeni müalicə üsulları və texnologiyalarının Azərbaycanda tətbiqi baxımından bu Konqres özünəməxsus rolu ilə seçilir. Mötəbər beynəlxalq tibb qurumlarını təmsil edən tanınmış kardioloq alim və cərrahların iştirakı mühüm elmi və praktiki əhəmiyyətə malik tədbirinizin böyük nüfuzunun göstəricisidir.

Ümidvaram ki, kardiologiyanın və ürək-damar cərrahiyyəsinin aktual məsələlərinin Konqresdə geniş müzakirəsi həkimlərimizin öz xarici həmkarları ilə əlaqələrini daha da möhkəmləndirəcək, beynəlxalq təcrübədən qarşılıqlı faydalanmaqla bütövlükdə tibb elminin inkişafına xidmət edəcəkdir.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 may 2025-ci il**

# “Bakı Ürək Günləri” 9-cu Beynəlxalq Konqresinin rəsmi açılış mərasimi

**Mayın 17-də Azərbaycan Ürək-Damar Cərrahiyyəsi Cəmiyyəti (AÜDCC) tərəfindən təşkil edilən “Bakı Ürək Günləri” 9-cu Beynəlxalq Konqresinin rəsmi açılış mərasimi olub.**





Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva tərəfindən Prezident İlham Əliyevin 9-cu Beynəlxalq Konqresin iştirakçılarına ünvanladığı müraciət oxunub. (Müraciət qəzetin bugünkü nömrəsində dərc olunub).

Səhiyyə nazirinin müavini Nadir Zeynalov çıxış edərək bildirib ki, Elmi-Tədqiqat və Kardiologiya İnstitutunun yaradılması birbaşa Heydər Əliyevin təşəbbüsü ilə reallaşıb və onun iştirakı ilə açılışı keçirilib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da səhiyyə, tibb elmi və tibb təhsilini diqqət mərkəzində saxlayırlar: “Müstəqil Azərbaycanda tibb və səhiyyə sahəsində bilavasitə ölkə rəhbərliyinin nəzarəti ilə çox vacib islahatlar aparılır. Bunların arasında ən vacibi səhiyyənin yeni maliyyələşmə sisteminə keçməsidir. Bu da icbari tibbi sığorta sisteminin tətbiqidir”.

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov deyib ki, bu konqres Ulu öndərin xatirəsinə həsr edilib. Çünki bu sahənin inkişafı Ulu öndər tərəfindən qoyulub. Bütün sahələrdə olduğu kimi, səhiyyə, elm və təhsil sahəsində Ulu öndərin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün ölkəmizdə ürək-damar cərrahiyyəsi sahəsində böyük uğurlar qazanılır. Hazırda açıq-ürək əməliyyatları nəinki paytaxtda, bölgələrdə də keçirilir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova bildirib ki, ötən il tibb müəssisələrimizdə 36 mindən çox ürək-damar əməliyyatı icra olunub. Bu rəqəm, sözün əsl mənasında, həyatların xilas edilməsi deməkdir. Bu gün ölkəmizdə 400-ə yaxın kardioloji xidmət icbari tibbi sığortanın təminatına daxildir. On minlərlə vətəndaş bu xidmətdən istifadə edir.

TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov deyib ki, ölkə səhiyyəsində son illərin ən əhəmiyyətli və təsiredici addımlarından biri icbari tibbi sığortanın tətbiqidir. Nəticədə kardioloji xidmətlərin əlçatanlığı 3 dəfə artıb, regionlarda belə invaziv kardiologiya xidmətləri göstərilməkdədir. O bildirib ki, nəticə olaraq ölkəmizdə ürək-damar xəstəliklərindən ölüm 100 min nəfərə görə 12 faiz azalıb (2019-cu illə müqayisədə). Yeddi regionda açıq ürək əməliyyatları həyata keçirilib və bu əməliyyatların müvəffəqiyyət göstəricisi 90 faizi ötüb.



Konqres plenar sessiyalarla işini davam etdirib.

Xatırladaq ki, konqresdə ümumilikdə 20-dən artıq ölkədən 400-ə yaxın yerli və əcnəbi kardioloq və kardiocərrah iştirak edir.

***XQ***

# Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 825-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 29 dekabr tarixli 435 nömrəli, “Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə” 2001-ci il 3 sentyabr tarixli 569 nömrəli, “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında” 2003-cü il 4 avqust tarixli 911 nömrəli, “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2012-ci il 6 iyun tarixli 648 nömrəli və “Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 21 iyun tarixli 1480 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 10 aprel tarixli 2095 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Dövlət qulluqçularının reyestrinin aparılması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Dövlət qulluqçularının reyestri” informasiya ehtiyatı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4.** Dövlət orqanları və “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsinə uyğun olaraq müvafiq publik hüquqi şəxslər struktur qurumlarında qulluq keçən dövlət qulluqçuları, stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər barəsində (“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 2.3-cü maddəsində nəzərdə tutulan dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və xüsusi (hərbi, diplomatik) rütbəsi olan şəxslər istisna olmaqla):

4.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydanın 2.1-ci bəndində nəzərdə tutulan məlumatların “Dövlət qulluqçularının reyestri” informasiya ehtiyatına (bundan sonra – Reyestr) ötürülməsini və (və ya) daxil edilməsini altı ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

4.2. bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan məlumatların mütəmadi yenilənməsini təmin etsinlər.

**5.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**6.** Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi:

6.1. Reyestrin formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

6.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Reyestrin Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Reyestrin “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**7.** “Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 21 iyun tarixli 420 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 6, maddə 497 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 may 2025-ci il**

# Sahibə Qafarova Vatikana səfər edib

**Mayın 17-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Roma Papası XIV Leonun rəsmi andiçmə mərasimində iştirak etmək üçün Vatikana işgüzar səfər edib.**

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

***XQ***




# TDT zirvəsi Macarıstanda

**Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Qeyri-rəsmi Zirvəsi bu il mayın 20 və 21-də Budapeştdə keçiriləcək.**

Bu barədə Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyindən bildirilib.

Verilən məlumata görə, Macarıstanın Baş naziri Viktor Orbanın ev sahibliyi ilə təşkil olunacaq Zirvədə TDT-yə üzv dövlətlərin başçıları ilə yanaşı, müşahidəçi ölkələrin nümayəndələri və təşkilatın Baş katibi iştirak edəcəklər.

Zirvə, TDT tarixində ilk dəfə bir müşahidəçi ölkənin ev sahibliyi ilə keçiriləcək və bu, Macarıstanın Türk dövlətləri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirmək istiqamətində artan rolunu vurğulayır.

“Şərq və Qərbin Görüş Nöqtəsi” mövzusu ilə keçiriləcək Qeyri-rəsmi Zirvədə prioritet sahələrdə əməkdaşlığı inkişaf etdirmək, regional və qlobal miqyasda ortaq təmasları müzakirə etmək kimi mühüm məsələlər müzakirə olunacaq.




Zirvənin sonunda TDT-nin ortaq baxışını və strateji istiqamətini təsdiqləyən “Budapeşt Bəyannaməsi”nin qəbulu, eləcə də müxtəlif mühüm qərar və təşəbbüslərin ictimaiyyətə açıqlanması nəzərdə tutulur.

Qeyri-rəsmi Zirvə ərəfəsində, TDT Xarici İşlər Nazirləri Şurası Budapeştdə toplanaraq Zirvənin gündəliyini və Dövlət Başçılarının təsdiqinə təqdim olunacaq sənədləri yekunlaşdıracaqlar.

***XQ***

# Türkiyə Azərbaycanla üç hökumətlərarası sazişi təsdiqləyib




**Türkiyə hökuməti Azərbaycanla turizm, su ehtiyatları və baytarlıq sahələrində əməkdaşlığa dair hökumətlərarası sazişləri təsdiq edib. Türkiyə Prezident Rəcəb Tayyib Ərdoğanın imzaladığı sənədlər bu ölkə hökumətinin rəsmi nəşri olan “Resmi Gazete”də dərc edilib.**

“Türkiyə və Azərbaycan arasında turizm sahəsində əməkdaşlığa dair hökumətlərarası saziş” 2024-cü il noyabrın 15-də Bakıda imzalanıb və iki qardaş ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsini hədəfləyir.

Saziş turizm sahəsində əlaqələrin dərinləşdirilməsi üzrə geniş spektrli tədbirləri, o cümlədən birgə layihə və proqramların həyata keçirilməsini, ümumi turizm marşrutlarının formalaşdırılmasını, qastronomiya turizminin stimullaşdırılmasını nəzərdə tutur.

“Türkiyə və Azərbaycan arasında su sahəsində əməkdaşlığa dair hökumətlərarası saziş”in imzalanma mərasimi 2024-cü il mayın 8-də Ankarada keçirilib. Sənəd su ehtiyatlarının səmərəli tənzimlənməsi və istehlakı məqsədi daşıyır ki, bu da aqrar sektorun inkişafına və ərzaq təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcək.

“Türkiyə və Azərbaycan arasında baytarlıq sahəsində əməkdaşlığa dair hökumətlərarası saziş” isə 2024-cü il fevralın 19-da Ankarada imzalanıb.

***XQ***

# Xəzər dənizində zəlzələ qeydə alınıb

**Mayın 17-də Xəzər dənizində zəlzələ qeydə alınıb.**

Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata əsasən, yerli vaxtla saat 21.18-də qeydə alınan yeraltı təkanların maqnitudası 3,4 olub.

Zəlzələ ocağı 70 km dərinlikdə yerləşib.

***XQ***



(əvvəli 1-ci səhifədə)

# Dünyanı ovsunlayan xarizma



## Siyasi gündəmə söykənən dəqiq addımlar

ASB-nin Tirana Sammitinin əvvəlkilərdən fərqli atmosferdə baş tutduğunu deyə bilərik. Bu fərqliliyi şərtləndirən amillərdən biri Prezident İlham Əliyevin çoxtərəfli və ikitərəfli görüşlərdə nümayiş etdirdiyi özünəməxsus diplomatik çevikliyi, siyasi iltifatı, ağayana duruşu iştirakçıların, eləcə də bu səhnələri ekran qarşısında izləyən milyonlarla tamaşaçının gözündən yayınmadı. Azərbaycanın bu toplantıda suverenliyini bərpa etmiş ölkə mövqeyindən çıxış etməsi nə qədər qürurverici idisə, dövlətimizin başçısının yüksək diplomatik xarizmasının vizual təsdiqi və ən önəmlisi, onun dünya çapında qazandığı liderlik statusunun hamı tərəfindən qəbul olunması faktı ayrıca qeyd olunmalıdır.

İlham Əliyev bu statusu bir günün içində qazanmayıb. Bu, dövlətimizin başçısının daxili prioritetlərin və xarici tendensiyaların aydın dərk edilməsinə, qlobal çağırışlara operativ qoşulmasına əsaslanan və uzun illər ərzində aparılan sistemli diplomatik fəaliyyətin məntiqi nəticəsidir. Siyasi uzaqgörənliyə söykənən hesablamalar, hadisələrin inkişafını proqnozlaşdırmaq və ölkənin strateji maraqlarına cavab verən həll yollarını operativ təklif etmək bacarığı... İlham Əliyevi fərqləndirən cəhətlər bunlardır.

İndiyə qədər kənar müşahidəçidə, təbii olaraq, belə bir təsəvvür yarana bilərdi ki, Azərbaycan–Aİ münasibətləri bir-birindən uzaqlaşmağa doğru gedir. Aİ-nin əvvəlki administrasiyasının Azərbaycana münasibətdə haqsızlıq nümayiş etdirməsi fakt idi. İntəhası, Azərbaycan liderinin qəti və dəyişməz siyasi mövqeyi bu faktın aradan qaldırılmasına səbəb oldu. Artıq Azərbaycan istər siyasi, geosiyasi, enerji, nəqliyyat sahələrində, istərsə də dünyanın üzləşdiyi qlobal problemlərin aradan qaldırılmasında etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Bu mənada Aİ də yaxşı başa düşür ki, onun Cənubi Qafqaz, Mərkəzi Asiya və Yaxın Şərqdə hədəflədiyi məqsədlərə çatmasında Azərbaycandan başqa sabitqədəm tərəfdaş tapa bilməyəcək. Təşkilatın rəsmisi Kaya Kallasın Azərbaycana səfəri, Aİ prezidenti Antonio Koştanın dövlət başçımızla telefon danışığı, Ursula Fon der Lyayenin Koşta ilə birgə Prezident İlham Əliyevlə görüşdə iştirakı Aİ-nin Azərbaycana verdiyi dəyərin göstəricisi idi.

Bu gün əminliklə deyə bilərik ki, Aİ ilə Azərbaycan arasında diplomatik əlaqələr tam bərpa olunub və normal məcraya düşüb. Tirana səfəri çərçivəsində Prezident İlham Əliyevin Avropanın aparıcı dövlətlərinin liderləri ilə keçirdiyi ikitərəfli görüşləri Azərbaycana olan marağı və ölkəmizə verilən əhəmiyyəti, əməkdaşlıq istəyinin böyük miqyasını nümayiş etdirirdi.

## Hamının hesablaşdığı beynəlxalq aktor

Artıq dünyanın "böyük gücləri" də Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialını, Cənubi Qafqazın ən güclü dövləti, Xəzər regionunun nüfuzlu aktoru olması faktını qəbul edir. Bu bölgədə Azərbaycanın xeyir-duası olmadan hansısa transregional, yaxud transmilli layihə effektiv icra oluna bilməz. Bunu həm bölgə, həm dünya ölkələri, o cümlədən Aİ üzvü olan dövlətlər də yaxşı başa düşürlər.

Bir tərəfdən "Asiya pələngi" Çinlə hərtərfli strateji tərəfdaşlıq əlaqələri quran, Mərkəzi Asiya, Yaxın Şərq ölkələri ilə münasibətləri durmadan inkişaf etdirən Azərbaycan həm də Aİ ilə münasibətlərini normal məcraya yönəltməyi, qarşılıqlı maraqlara cavab verən formada qurmağı bacarır. Qlobal miqyasda əməkdaşlıq əlaqələrini möhkəmləndirən, təhlükəsizliyə təhdid hallarının aradan qaldırılmasına töhfələrini verən ölkəmiz bu gün dünyanın müxtəlif yerlərində keçirilən tədbirlərin arzuedilən iştirakçısıdır. Prezident İlham Əliyevin qatıldığı ASB-nin Tirana toplantısı da bu qəbildən idi. Qürurverici haldır ki, dövlətimizin başçısı Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı qurumların da sammit, konfrans və görüşlərinə dəvət alır. Bu da ölkəmizin beynəlxalq aləmdə artan çəkisinin, Azərbaycan Prezidentinin şəxsi nüfuz və siyasi xarizmasının göstəricisidir. Təbii ki, bu, beynəlxalq miqyasda Azərbaycanın yüksələn mövqeyi və bilavasitə Prezidentin dünya liderləri arasında söz sahibi olması deməkdir.

Yaxın vaxtlarda Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) sammitinin, gələn il isə Urban forumunun keçirilməsi də ölkəmizin artan beynəlxalq nüfuzundan xəbər verir. Bunlar Azərbaycan Prezidenti İlham Əliyevin müəllifi olduğu növbəti uğurların müjdəsi, çoxvektorlu xarici siyasətin təntənəsidir.

## Lider nüfuzunun aydın görüntüsü

Prezident İlham Əliyev ASB-nin 6-cı Sammiti çərçivəsində keçirdiyi görüşlərdə sərgilədiyi diplomatik jestləri, siyasi-psixoloji mesajları ilə də yadda qaldı. İlham Əliyevin baş nazir Nikol Paşinyanla görüş zamanı nümayiş etdirdiyi jesti ayrıca qeyd etmək istərdik. Rahat və sakit tərzdə kresloda əyləşən dövlətimizin başçısı bununla sabit və möhkəm mövqedə dayandığını göstərirdi. İlham Əliyevin həmsöhbətini diqqətlə dinləməyə hazır pozada olması onun tərəf müqabili qarşısında psixoloji üstünlüyündən xəbər verirdi. Bunun tam əksinə olaraq, Paşinyan gərgin vəziyyətdədir. Bu poza hayların baş nazirinin bütün diqqətinin və marağının İlham Əliyevə yönəldiyinə dəlalət edirdi. Yəni, kənardan seyr edilən vizual mənzərə Azərbaycan liderinin məkana və vəziyyətə hakim kəsildiyini büruzə verirdi. Bu, sadəcə olaraq, üz-üzə oturanların psixoloji vəziyyətini deyil, həm də tərəflər arasındakı güc balansının qabarıq şəkildə, vizual formada göstəricisi sayılmalıdır.

Nəzərdən yayınmayan daha bir maraqlı epizod: Paşinyan görüşdən öncə İlham Əliyevə qəhvə içməyi təklif edir. Onun təklifinə Azərbaycan Prezidentinin "söhbətimi bitirəndən sonra gələrəm" cavabı bu dialoqda diktə edən tərəfin, dominantın kim olduğunu sərgiləyir. Bu, İlham Əliyevin məkandan və situasiyadan asılı olmayaraq, vəziyyətə nəzarəti daim əlində saxlamaq bacarığıdır.

Növbəti video-görüntülərdə Fransa prezidenti Emmanuel Makronla təmas anı diqqəti cəlb edir. Makronun İlham Əliyevə doğru yaxınlaşması və vizual təmas qurmaq istəyi diplomatik jest kimi görünə bilər. Lakin bu anda İlham Əliyevin üzündə müşahidə olunan ifadə, təbəssüm və ətrafındakılarla söhbətini davam etdirməsi çox şey deyirdi. Bu jest Azərbaycanın Fransa ilə gərgin münasibətləri fonunda dövlətimizin başçısının diplomatik etiket nümunəsi kimi qəbul oluna bilər.

*İmran BƏDİRXANLI*
*XQ*

# Hindistanın emosional qadağaları

## *Bu hikkə ilk növbədə Dehlinin özünə ziyan vuracaq*

**Hindistanda Azərbaycan və Türkiyə ilə bağlı baş qaldıran boykot çağırışları güclənir və getdikcə açıq-aşkar isterik xarakter alır. Hətta, ölkənin kino sənayesi də etiraz dalğasına tuş gəlib. Azərbaycan və Türkiyədə hind filmlərindən səhnələr çəkilməsini dayandırmaq tələbi səslənir.**



Qeyd edək ki, Hindistan və Pakistan arasında 2025-ci il mayın 7-də Kəşmirdə başlanan, Nyu–Delhinin "Sindur" adı verdiyi son silahlı qarşıdurma gərginliyin artmasına səbəb olub. Hindistanın raket zərbələrinə cavab olaraq Pakistan qarşı tərəfin hərbi obyektlərinə, o cümlədən nəzarət xətti boyunca yerləşən mövqelərinə güclü zərbələr endirib. Toqquşmalar iki gün davam edib. Mayın 10-da ABŞ Prezidenti Donald Tramp iki ölkənin onun vasitəçiliyi ilə atəşkəsə razılaşdıqlarını bildirib.

İki nüvə dövləti arasında baş verən son hərbi qarşıdurma, qeyd etdiyimiz kimi, atəşkəs əldə olunması ilə yekunlaşsa da, beynəlxalq arenada ciddi sarsıntı yaradıb. Yəni, razılaşma münaqişənin deeskalasiyasının qarşısını alsa da, onun siyasi və ictimai dalğaları hələ də yayılmaqda davam edir.

Bakı və Ankara bu prosesdə hər zaman olduğu kimi, strateji müttəfiqi İslamabadın mövqeyini dəstəklədilər. Türkiyənin Pakistana hələ qarşıdurma başlamazdan əvvəl hərbi yardım göndərməsi, Azərbaycanın isə siyasi dəstək ifadə etməsi Hindistanda kəskin etiraz dalğasına səbəb olub. Orada Azərbaycan və Türkiyəyə qarşı kampaniya başlanıb. Əvvəlcə bu narazılıq sosial çağırışlarla ifadə olunsa da, qısa müddətdə ciddi iqtisadi və mədəni təsirləri olan boykot kampaniyasına çevrilib. Əvvəlcə hindistanlılar Azərbaycan və Türkiyəyə səyahət etməkdən çəkinməyə çağırılıb. Bunun ardınca böyük turizm şirkətləri turların satışını dayandırıb və əksər turistlər sifarişlərini ləğv ediblər. Onlayn platformalar yeni sifarişləri qəbul etmir. Rəqəmlər də bu tendensiyanı təsdiqləyir. Turizm portalının mayın 14-nə olan məlumatına görə, son bir həftə ərzində Azərbaycan və Türkiyəyə bilet satışında 60 faizlik azalma, bronların ləğvində isə 250 faizlik artım qeydə alınıb. Oxşar tendensiyaları digər servislər də təsdiqləyir. Məsələn, Türkiyəyə sifarişlərin 22 faizi, Azərbaycana isə 30 faizi ləğv edilib. "Ixigo" və "Pickyourtrail" kimi saytlar bu istiqamətlər üçün yeni sifarişləri qəbul etməyi tamamilə dayandırıb. Beləliklə, indiyədək Hindistan vətəndaşlarının maraqla səyahət etdiyi Azərbaycan və Türkiyə artıq "qara siyahı"ya salınır.

Daha ciddi addım isə ölkənin ən iri ticarət qurumlarından olan Hindistan Ticarətçilər Konfederasiyasının (CAIT) çağırışı ilə atılıb. Konfederasiyanın mayın 15-də keçirilən milli konfransında Azərbaycan və Türkiyə ilə ticarət əlaqələrinin tamamilə dayandırılması təklif olunub. Bu çağırışı 125 aparıcı şirkət yekdilliklə dəstəkləyib. Kampaniyanın təsiri "Bollivud"a (bu söz Hindistanın Mumbay şəhərinin kino sənayesinin sinonimi kimi işlədilir–S.H.) da çatıb. Biznes ictimaiyyəti prodüserlərə Türkiyə və Azərbaycanda çəkilişləri dayandırmaq üçün müraciət edib, buna məhəl qoyulmayacağı təqdirdə ictimai boykotla hədələyib. Həmçinin qərara alınıb ki, heç bir böyük şirkət bu ölkələrdə öz məhsullarının reklamını çəkməsin. Qeyd edək ki, son illər Azərbaycan hindistanlı turistlər arasında populyar istiqamətə çevrilib. Ölkəmizdə "Bollivud" filmlərindən səhnələr və musiqi klipləri çəkilib. Estrada ulduzları Azərbaycanın gəzməli-görməli yerlərindən, istirahət məkanlarından çəkdikləri görüntüləri sosial şəbəkə hesablarında da fəal şəkildə paylaşıblar.

Həmçinin, Mumbay (keçmiş Bombey) hava limanında yerüstü xidmətlərin 70 faizinə nəzarət edən Türkiyənin "Çelebi Hava Servisi" şirkəti ilə də müqavilə ləğv edilib. Qərar Hindistanın Mülki Aviasiya Təhlükəsizliyi Bürosu (BCAS) tərəfindən qəbul edilib. Əməkdaşlığın dayandırılması "milli təhlükəsizlik maraqları naminə atılan addım" adlandırılıb. Müxalifətçi "Şiv Sena" partiyasının lideri Murci Patel parlamentdə deyib ki, Pakistanı dəstəkləyən Türkiyə Hindistanda pul qazanmamalıdır. Bundan əvvəl "TRT World" telekanalının da ölkədə yayımlanması dayandırılıb.

***

Ancaq Hindistan tərəfi anlamır ki, onun bu emosional addımları, başladılan boykot kampaniyası Ankara və Bakının kursunu dəyişdirə, İslamabadla strateji ittifaqı sarsıda bilməz. Türkiyə, Azərbaycan və Pakistan arasında son illərdə yaranmış müttəfiqlik təkcə mədəni və dini yaxınlıq üzərində formalaşmayıb, güclü geosiyasi maraqlara əsaslanır. Hindistanın bu yanaşması Türkiyə və Azərbaycana müəyyən iqtisadi ziyan vura bilsə də, Pakistanla strateji müttəfiqliyin dəyəri daha böyükdür.

Ekspertlər bu fikirdədirlər ki, Hindistan bazarının itirilməsi ölkəmiz üçün ciddi problemə çevrilməyəcək. 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 957 milyon dollar olub ki, bunun da 734 milyonunu əsasən neft və neft məhsullarının ixracı təşkil edib. Aydındır ki, Hindistan Azərbaycan neftini almaqdan tamamilə imtina etsə belə, Bakı asanlıqla alternativ alıcı tapa bilər. Çünki neft və neft məhsulları dünya bazarında yüksək likvidliyə malik əmtəədir. Əvəzində Hindistandan idxal olunan malların həcmi xeyli az – 223 milyon dollar aralığındadır. Onun da əhəmiyyətli hissəsini düyü təşkil edib. Ümumi idxalda bu məhsulun payı heç bir faizi keçmir. Əgər rəsmi Nyu–Delhi bu məhsulların ixracını dayandırsa, bu daha çox Hindistanın tədarükçülərini çətin vəziyyətə sala bilər – xüsusilə də Pakistanın həmin boşluğu doldurmaq üçün hazır vəziyyətdə olduğu nəzərə alınsa. Yəni, hindistanlılar Azərbaycan bazarını itirsələr, onların yerini tez bir zamanda Pakistan şirkətləri tutacaqlar.

Əlbəttə, Hindistandan edilən çağırışların arxasında yalnız konkret dövlətlərarası gərginliklər deyil, həm də daha geniş geosiyasi və ideoloji faktorlar dayanır. Azərbaycan və Türkiyənin İslam dünyasında artan nüfuzu, Pakistanla strateji tərəfdaşlığı, eləcə də Ermənistanla münasibətdə tutduqları mövqe Hindistanda bəzi çevrələr tərəfindən narazılıqla qarşılanır. Hindistan son illərdə Ermənistanla əlaqələrini nəzərəçarpacaq dərəcədə genişləndirib. Bu yaxınlaşma, əsasən, hərbi və hərbi-texniki əməkdaşlıq, diplomatik dəstək və regional siyasətdə ortaq maraqlar üzərində qurulub. 2020-ci ildəki 44 günlük Vətən müharibəsindən sonra Hindistanın Ermənistana silah satışı və siyasi dəstəyi artmağa başladı. Bu isə Azərbaycanın rəsmi dairələrində və cəmiyyətində narahatlıqla qarşılandı. Azərbaycan və Türkiyə tərəfindən Ermənistanın işğalçı siyasətinin açıq şəkildə tənqid edilməsi və bu siyasətin dəstəklənməsinə qarşı çıxışlar Hindistanın bəzi dairələrində narazılıq doğurur. Bu baxımdan, boykot çağırışları Hindistan-Ermənistan yaxınlığının bir "siyasi refleksi" kimi də dəyərləndirilə bilər.

Azərbaycan, Türkiyə və Pakistan arasında formalaşan strateji müttəfiqlik formatı Hindistanda ciddi şəkildə izlənilir. Bu üç ölkənin birgə hərbi təlimləri, diplomatik bəyanatları və beynəlxalq platformalarda bir-birinə verdikləri dəstək Hindistan tərəfindən potensial təhlükə kimi qiymətləndirilir. Xüsusilə Kəşmir məsələsində Pakistanın mövqeyini açıq şəkildə müdafiə edən bəyanatlar Hindistan ictimaiyyətində Türkiyə və Azərbaycanın mənfi imicini formalaşdırmağa xidmət edir. Bu kontekstdə Hindistan cəmiyyətinin bəzi təbəqələri bu üçlüyü "anti-Hindistan bloku" kimi qavrayır və buna qarşı təpkilərini ictimai platformalarda, o cümlədən sosial şəbəkələrdə boykot çağırışları ilə ifadə edirlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın beynəlxalq tədbirlərdə Kəşmir probleminə dair sərt çıxışlar etməsi də Hindistan tərəfindən narazılıqla qarşılanır. Qardaş ölkə prezidentinin 2019-cu ildə BMT-də Kəşmirlə bağlı etdiyi çıxış Hindistan mediasında geniş müzakirə edilmiş, bəzi analitiklər bunu "daxili işlərə müdaxilə" kimi qiymətləndirmişdilər. Bu ritorika Hindistanda islamofob siyasi qruplar tərəfindən manipulyasiya edilərək Türkiyəyə qarşı ictimai nifrət yaratmaq üçün istifadə olunur. Beləliklə, boykot çağırışları yalnız iqtisadi deyil, həm də ideoloji xarakter alır.

Pakistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasim Mohiuddin də mayın 8-də keçirdiyi mətbuat konfransında bildirmişdi ki, Hindistanın Azərbaycandan idxal olunan mallara qadağa qoyması çox yanlış addım olardı: "Hindistanın Azərbaycandan idxal olunan mallara qadağa qoyduğu barədə qərarını görməmişəm. Bu, çox yanlış bir addım olardı. Hindistan tərəfi belə bir qərar verməkdənsə bölgədə yaranan gərginliyin aradan qaldırılması üçün təşəbbüskarlıq nümayiş etdirməlidir".

### Ekspert rəyi



**Akif NƏSİRLİ,**
**iqtisadçı ekspert**

– Hindistanın siyasi bəyanatları iqtisadi münasibətlərə ciddi təsir göstərməyəcək. Azərbaycanın Hindistandan idxal etdiyi məhsullar başqa ölkələrdən də asanlıqla əldə oluna bilər. Hindistanın bizi boykot etməsi, əslində, onun özünə ziyandır. Biz Hindistandan kənd təsərrüfatı məhsulları, kimyəvi maddələr, düyü və digər məhsullar alırıq. Amma bu məhsulları başqa ölkələrdən də əldə edə bilərik. Məsələn, onların münaqişə yaşadığı Pakistandan.

Əgər Hindistan siyasətçiləri verdikləri bəyanatların ardınca gedib öz dövlətlərinin iqtisadi menecerlərinə bizi boykot etməyi tapşırsalar, o zaman Azərbaycan kimi bir bazarı itirəcəklər. Azərbaycana ixracatı dayandıra bilərlər, amma oradan aldığımız məhsulların yüzlərlə alternativi var. Yəni biz heç nə itirməyəcəyik. Ona görə də itirən yalnız özləri olacaq. Çünki gələcəkdə ola bilər ki, Hindistanın başqa ehtiyacları yaransın və o zaman Azərbaycan bu ehtiyacları ödəməyəcək.

Bugünkü vəziyyət bir daha göstərir ki, beynəlxalq münasibətlərdə hisslər və ictimai qəzəb üzərində qurulan strategiyalar uzunömürlü olmur. Əksinə, bu cür emosional boykotlar tərəflər arasında yaranmış iqtisadi və mədəni körpülərin zədələnməsinə, üçüncü tərəflərin isə həmin boşluqları doldurmasına gətirib çıxarır. Azərbaycan və Türkiyə Hindistanla münasibətlərində hər zaman praqmatik, qarşılıqlı hörmətə əsaslanan və beynəlxalq hüquqa uyğun yanaşmanı seçiblər. Hazırkı geosiyasi mənzərədə belə yanaşma daha səmərəli və etibarlıdır. Boykotlar isə gələcəkdə emosiyaların deyil, məntiqin qalib gələcəyi bir mərhələyə qədər sadəcə müvəqqəti dalğadır.

*Səxavət HƏMİD*
*XQ*

VIII məqalə

# Qlobal güc paritetinin dəyişən koordinatları

## ABŞ – Çin institusional qarşıdurması kontekstində

Qlobal diplomatiya səhnəsində getdikcə dərinləşən və çoxşaxəli bir rəqabət müşahidə olunur: Çin və ABŞ beynəlxalq təşkilatlarda mövqe uğrunda mübarizədə qarşı-qarşıya gəlirlər. Aralarındakı qarşıdurma qlobal idarəetmənin əsas prinsiplərini yenidən formalaşdırır: Çin mövcud qurumlarda təsirini artırmaqla yanaşı, alternativ platformalar qurur; ABŞ isə həm bu təşəbbüslərə qarşı müqavimət göstərir, həm də yeni ittifaqlar vasitəsilə öz liderliyini möhkəmləndirməyə çalışır.

Çinin beynəlxalq təşkilatlarda təsirini artırmaq strategiyası son illərdə həm miqyas, həm də hədəf baxımından daha sistemli və məqsədyönlü xarakter alıb. Onun strategiyası iki əsas istiqamətdə həyata keçirilir: mövcud beynəlxalq qurumlarda nüfuzun genişləndirilməsi və bu institutlara alternativ, paralel strukturların qurulması. Hər iki istiqamət Çinin yüksələn qlobal güc olaraq beynəlxalq sistemin qaydalarını öz maraqları çərçivəsində formalaşdırmaq istəyi ilə bağlıdır. Çin, ilk növbədə, mövcud beynəlxalq təşkilatlarda, xüsusilə, Birləşmiş Millətlər Təşkilatının müxtəlif agentliklərində və Ümumdünya Ticarət Təşkilatında (ÜTT) daha çox mövqe və təsir əldə etməyə çalışır. Xüsusilə, inkişaf etməkdə olan ölkələrlə münasibətlərdə Çin iqtisadi və humanitar yardımları strateji alət kimi istifadə edir. Mərkəzi Asiya, Afrika və Cənub–Şərqi Asiya regionlarında Çin tərəfindən təqdim olunan infrastruktur layihələri, kredit proqramları, tibbi yardım və texniki dəstək formaları vasitəsilə bu ölkələrin siyasi dəstəyini qazanmağa çalışır.



Ticarət və iqtisadi sahədə isə Çin ÜTT çərçivəsində daha fəal mövqedən çıxış edir. Əsas məqsəd ticarət rejimlərinin öz maraqlarına uyğun şəkildə liberallaşdırılması, inkişaf etməkdə olan ölkələr üçün xüsusi güzəştlərin qorunması və texnoloji transfer sahəsində yeni normativ çərçivələrin formalaşdırılmasıdır. Çin rəhbərliyi texnologiyanın milli inkişaf üçün vacibliyini vurğulayaraq, bu sahədə daha ədalətli və inklüziv qaydaların müəyyənləşdirilməsinə çalışır. Burada Pekinin əsas arqumenti odur ki, mövcud qaydalar, əsasən, Qərb şirkətlərinin maraqlarını qoruyur və qlobal inkişafda qeyri-bərabərliyi dərinləşdirir. Çinin bu strategiyası, sadəcə, texniki və idarəetmə məsələləri ilə məhdudlaşmır. Əksinə, bu yanaşma daha dərin ideoloji və normativ hədəfləri özündə cəmləyir. Pekin rəhbərliyi beynəlxalq hüququ və təşkilatları yalnız Qərbin liberal dəyərlərinin daşıyıcısı kimi deyil, həm də qlobal Cənubun maraqlarını və inkişaf modellərini əks etdirən daha çoxqütblü və balanslı platformalara çevirməyi qarşısına məqsəd qoyur.

Çinin qlobal idarəetmə sisteminə yanaşmasında ikinci əsas xətt – paralel və alternativ beynəlxalq institutların yaradılmasıdır. Həmin təşəbbüslər isə həm qlobal qərar qəbuletmə sistemində Çin üçün daha çox təsir imkanı yaratmaq, həm də mövcud Qərb mərkəzli institutların hegemonluğuna alternativ formalaşdırmaq məqsədi daşıyır. Bu istiqamətdə ən bariz nümunələrdən biri Asiya İnfrastruktur İnvestisiya Bankı və "Bir kəmər, bir yol" təşəbbüsüdür. Hər iki layihə iqtisadi vasitələrlə geosiyasi nüfuz qurmaq və beynəlxalq münasibətlər sistemində Çin mərkəzli inteqrasiya modeli yaratmaq niyyəti ilə səciyyələnir. Asiya İnfrastruktur İnvestisiya Bankı 2016-cı ildə fəaliyyətə başlayan və Pekin tərəfindən irəli sürülən bu maliyyə institutu formal olaraq Asiyanın infrastruktur ehtiyaclarını qarşılamaq üçün yaradılıb. Əslində, Dünya Bankı və Asiya İnkişaf Bankı kimi Qərbin nəzarətində olan maliyyə institutlarına qarşı iqtisadi alternativdir. Bankın idarəetmə strukturu və qərar qəbuletmə mexanizmləri elə tənzimlənib ki, Çin burada faktiki veto hüququna sahibdir. Məhz bu amil onu regionda və daha geniş mənada beynəlxalq sistemdə öz iqtisadi və siyasi gündəmini irəli sürmək üçün mühüm aktora çevirir.



Digər tərəfdən, "Bir kəmər, bir yol" təşəbbüsü təkcə iqtisadi layihə deyil, əslində, Çinin XXI əsr üçün nəzərdə tutduğu yeni dünya nizamının geostrateji xəritəsidir. Avropa, Asiya və Afrikanı əhatə edən bu nəhəng layihə infrastruktur sərmayələri, limanlar, dəmir yolları, enerji daşıyıcıları və rəqəmsal texnologiyalar üzərindən ölkələri Pekinin iqtisadi orbitinə daxil etmək məqsədi güdür. Layihə çərçivəsində ölkələrin əksəriyyəti Çinlə ikitərəfli sazişlər imzalayıb, bir çoxu isə kredit asılılığı və borc diplomatiyası nəticəsində Pekinə qarşı siyasi güzəştlərə məcbur qalıb. Çinin bu təşəbbüsləri, xüsusilə ABŞ tərəfindən qlobal güc balansına birbaşa təhdid kimi qəbul edilir. ABŞ və onun müttəfiqləri Çinin "alternativ dünya nizamı"na qarşı həm siyasi, həm iqtisadi, həm də normativ səviyyədə cavab verməyə çalışırlar. Cavab əsasən iki istiqamətdə cəmlənir: yeni alyansların yaradılması və mövcud institutlar vasitəsilə Çin təsirinin qarşısını almaq. Çin–ABŞ rəqabətinin Hind–Sakit okean bölgəsində aldığı strateji ölçülər son illərdə beynəlxalq sistemdə yeni təhlükəsizlik və əməkdaşlıq formatlarının meydana gəlməsinə səbəb olub. Elə bu kontekstdə AUKUS və QUAD (Təhlükəsizlik üzrə Dördtərəfli Dialoq) kimi alyanslar Qərbin Çinə qarşı koordinasiya olunmuş cavab strategiyasının konkret və sistemli təzahürləri kimi dəyərləndirilir. 2021-ci ildə elan edilmiş AUKUS formatı – Avstraliya, Böyük Britaniya və ABŞ arasında üçtərəfli təhlükəsizlik paktı Çin üçün ciddi geostrateji siqnal idi. Alyansın əsas məqsədi yalnız bölgədə təhlükəsizlik balansını qorumaq deyil, həm də geostrateji deterensiya vasitəsilə Çinin Hind–Sakit okeanda nüfuz artımının qarşısını almaqdır. AUKUS-un ən diqqətçəkən elementi Avstraliyanın ABŞ və Britaniya texnologiyası əsasında nüvə enerjili sualtı qayıqlarla təchiz olunmasıdır ki, bu da təkcə regional güc balansının dəyişməsi demək deyil, həm də texnoloji üstünlük və informasiya paylaşımı kontekstində "məxfi informasiya bloku"nun formalaşmasıdır. AUKUS, eyni zamanda, kiber təhlükəsizlik, süni intellekt və kvant texnologiyaları kimi gələcəyin strateji sahələrində də əməkdaşlığı nəzərdə tutur. Nəticə etibarilə artıq klassik hərbi ittifaqlardan fərqli olaraq, gələcək təhlükələrə qarşı qabaqlayıcı güc mərkəzinin qurulması anlamına gəlir.

Çin bu təşəbbüsü açıq şəkildə "soyuq müharibə təfəkkürünün dirçəlişi" adlandıraraq, onun bölgədə silahlanma yarışını sürətləndirəcəyini və regional sabitliyi pozacağını bəyan edib.

Pekinin narahatlığı başadüşüləndir: AUKUS Çinin "dəniz ipəyi yolu" strategiyasına ciddi zərbə vurur və dəniz nəqliyyat marşrutlarında ABŞ-ın üstünlüyünü gücləndirir. AUKUS-dan fərqli olaraq, QUAD–ABŞ, Yaponiya, Hindistan və Avstraliya arasında dördtərəfli təhlükəsizlik və əməkdaşlıq platforması – daha çevik, genişsahəli və yumşaq diplomatik mexanizmlərlə işləyən bir formatdır. Əvvəlcə "Asiya NATO-su" kimi təqdim edilsə də, QUAD son illərdə daha çox rəqəmsal təhlükəsizlik, tədarük zəncirlərinin şaxələndirilməsi, iqlim dəyişikliyi və səhiyyə diplomatiyası sahələrinə fokuslanır. Eyni zamanda, QUAD-ın texnoloji komponenti – 5G, rəqəmsal infrastruktur və süni intellekt sahəsində Çin alternativlərinə qarşı müqavimət göstərmək – ABŞ-ın texnoloji bloklaşma siyasətinin bölgə miqyasında yayılması ilə üst-üstə düşür. Çin bu formatı da öz maraqlarına qarşı yönəlmiş "regionda blok siyasətinə dönüş" kimi dəyərləndirir və regional inteqrasiyanın açıq və inklüziv formatlarda həyata keçirilməli olduğunu vurğulayır.

Pekin alternativ olaraq Regional Çoxtərəfli İqtisadi Tərəfdaşlıq və Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformaları gücləndirməklə özünə yaxın normativ və institusional məkana yol açmağa çalışır. Digər tərəfdən, ABŞ ÜTT və Dünya Bankı kimi mövcud institutlarda Çin təsirinin balanslaşdırılmaqla, eyni zamanda, "Demokratik ölkələrin ittifaqı" ideyasını irəli sürərək beynəlxalq normativ sistemin liberal dəyərlər əsasında qorunmasını gündəmə gətirir. Aralarındakı mübarizə artıq yalnız iqtisadi rəqabət və ya diplomatik manevr deyil, qlobal ideoloji qarşıdurma forması alıb – "avtoritar kapitalizm" və "liberal demokratiya" modelləri arasında sivilizasion səviyyədə gedən bir mübarizədir.

Yeni platformalar beynəlxalq münasibətlər sistemində yaranmaqda olan yeni geosiyasi arxitekturanın siluetini ortaya qoyur. Artıq ənənəvi qlobal institutların – BMT, ATƏT, ÜTT kimi universal təşkilatların – rolu əvvəlki dominantlığını itirir, onların funksiyaları isə tədricən selektiv və məqsədyönlü alyanslar tərəfindən əvəz olunur. Müasir çoxtərəfli diplomatiyanın universal və inklüziv ruhu zəifləyir, yerini regional maraqlara və güc balansına əsaslanan yeni diplomatik modellər tutur.

Bu prosesdə ən maraqlı məqam odur ki, artıq zəif və orta güclü dövlətlər də əvvəlki kimi sistemin tənzimləmələrin passiv müşahidəçiləri deyillər. Əksinə, onlar bu çoxmərkəzli mühitdə daha çevik manevr imkanlarına sahib aktiv oyunçulara çevrilirlər. Yeni dünya nizamında uğur, hərbi və iqtisadi gücdən çox diplomatik çeviklik, strateji tərəfdaşlıq seçimi və texnoloji inteqrasiya bacarığı ilə ölçülür. Beynəlxalq təşkilatlar isə əvvəllər olduğu kimi, ümumi konsensus və hüquqi normalar əsasında deyil, daha çox geopolitik maraqların və strateji bloklaşmanın meydanına çevrilir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Yersiz tərslik Paşinyanın aqibətini tərsləşdirir

*(əvvəli 1-ci səhifədə)*

Baş nazir bu dəfə də ölkəsinin tərəf çıxdığı və ratifikasiya edilmiş beynəlxalq müqavilələrin yerli qanunlar üzərində üstünlüyə malik olması barədə konstitusiya müddəasına istinad etməklə öz iddialarını "özəl arqumentlərlə" sübut etməyə çalışıb. O, özünün tamamilə əsassız, beynəlxalq hüquqla daban-dabana zidd açıqlamasını "əsaslandırmaq" üçün konstitusiyalarına istinad edir. Bunun falş olduğunu görməkdən ötrü Ermənistan konstitusiyasının 5-ci maddəsinə (hüquq normalarının iyerarxiyası) nəzər yetirmək kifayətdir. Həmin maddədə yazılır ki, Ermənistan konstitusiyası ali hüquqi qüvvəyə malikdir. Yəni hayların baş nazirinin istinad etdiyi beynəlxalq müqavilənin üstün tutulması tezisinin konstitusiyaya aidiyyəti yoxdur.

A.Hacızadə şərhində daha sonra qeyd edir ki, 2022-ci ilin oktyabr ayından etibarən müzakirə olunan sülh sazişi layihəsində ərazi bütövlüyünə dəstək barədə müvafiq müddəaya razılıq verilməsi ilə yanaşı, paralel olaraq Ermənistan rəhbərliyinin 2023-cü ilin sentyabr antiterror tədbirlərinə qədər qondarma rejimə dəstək verməsi, onu legitimləşdirməkdə davam etməsi yaddan çıxmayıb.

Ermənistan rəhbərliyinin ərazilərin toxunulmazlığı ilə bağlı tez-tez adını çəkdiyi 1991-ci ilin sərhədləri və Alma-Ata Bəyannaməsini özünə sərfəli formada konstatasiya etməsini də birinci dəfə deyil eşidirik. Amma bu zaman torpaqlarımızı işğal altında saxladığı 30 il ərzində nəyə görə həmin bəyannaməyə, xəritələrə əməl etmədiyinin səbəbini izah etməkdən yayınır. Onun niyə Sovet xəritələrində öz əksini tapmış sərhədləri qəbul etməkdən boyun qaçırırsınız? – sualına cavabı yoxdur.

Paşinyanın başqa bir "siyasi gedişi" Ermənistan konstitusiya məhkəməsinin 1 il əvvəl qəbul etdiyi qərarı ilə manipulyasiyasıdır. Baş nazirə xatırlatmaq istərdik ki, 2010-cu ilin yanvarında Türkiyə ilə münasibətlərinin normallaşdırılmasına dair protokolların onun ölkəsinin konstitusiyasına uyğunluğu ilə bağlı konstitusiya məhkəməsinin qərarının təfərrüatlı şəkildə əsaslandırılmasını unutmasın. O zaman İrəvanın qondarma "Qərbi Ermənistan" iddialarından əl çəkmədiyini, eyni məntiq və yanaşmanın məhkəmənin Azərbaycanla Ermənistan arasında sərhəd komissiyalarının reqlamentinin konstitusiyaya uyğunluğu ilə bağlı 26 sentyabr 2024-cü il tarixli qərarının qəbulu zamanı şahidi olduq.

Ermənistan baş nazirinin ikitərəfli münasibətlərin normallaşmasına, bölgədə sülhə və sabitliyə mane olan problemləri arxa plana keçirərək, reallıq və siyasi məntiqlə bir araya sığmayan iddialarla çıxış etməsi onun sülhdə maraqlı olmadığını, əksinə, gizli gündəmə baş vurmaqla daşnak-revanşistlərin xəyal etdikləri növbəti təcavüzə hazırlaşmaq üçün "diplomatik art-hazırlıqlara", yeni avantüraya baş vurduğunu göstərir. Maraqlıdır ki, o, bunların təhlükəli siyasi manevrlər olduğunu bilərək, düşünülmüş şəkildə riskə yol verir. Deməli, şüurlu şəkildə özünün siyasi sonunu yaxınlaşdırır. Bu, onun son peşmançılığı ola bilər...

***İ.HƏSƏNQALA***
***XQ***

### Ekspert rəyi



***Yeganə HACIYAVA,***
***politoloq***

– Ermənistan baş naziri özü Müstəqillik bəyannaməsinin üç təməl müddəasını Ermənistanın qonşuları ilə münasibətləri inkişaf etdirməsinə və yaxşılaşdırmasına mane olması barədə bir neçə dəfə bəyanat verib. Bu ölkənin Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırması üçün atmalı olduğu addımlar var. Bunun üçün, ilk növbədə, konstitusiyasında və Müstəqillik bəyannaməsində dəyişiklik etməlidir. Hər iki sənədin müddəalarında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları yer alıb və bunlar mütləq dəyişdirilməlidir.

Ermənistan dövləti 1921-ci il Qars müqaviləsinin müddəalarını tanıdığını rəsmən bəyan etməyib. Xatırladım ki, 2009-cu ildə Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulmasına dair sazişdə – Sürix protokollarında da İrəvan Qars müqaviləsinin tanınması məsələsini qəbul etməmişdi. Hər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına dair sazişin hazırlanması prosesində Ermənistan xarici işlər nazirliyinin ozamankı rəhbəri Edvard Nalbandyan "İrəvanla Ankara arasında diplomatik münasibətlərin qurulmasına dair protokolun imzalanması hələ Ermənistan tərəfindən Qars müqaviləsinin tanınması olmadığını" bəyan etmişdi. Qars müqaviləsinin şərtlərinin Ermənistan tərəfindən tanınmaması isə o deməkdir ki, rəsmi İrəvan hələ də Türkiyə ilə mövcud sərhədi tanımır və Ankaraya qarşı ərazi iddialarından əl çəkmir.

Konstitusiyasından və müstəqillik bəyannaməsindən əlavə, dünyada erməniliyin ideoloji nüvəsi kimi fəaliyyət göstərən və bir çox ölkələrə qarşı ərazi, maddi və mənəvi iddiaları özündə əks etdirən "Ümumerməni bəyannaməsi" də dəyişməlidir. Bəyannamə daha çox saxta erməni soyqırımı qurbanlarının "hüquqlarının və qanuni maraqlarının bərpasını tələb edən" sənəd kimi təqdim olunur. Həmin sənəddə onun təkcə saxta soyqırımı deyil, həm də saxta erməni tarixinin bərpası kimi absurd çağırışla bağlı bəndlər də mövcuddur. Əsassız ideoloji konsepsiya kimi nəzərdə tutulsa da, bu bəyannaməyə Ermənistan dövlətinin müxtəlif rəsmi sənədlərində istinadlar da mövcuddur.

### Ekspert rəyi



***Fərhad MƏMMƏDOV,***
***siyasi icmalçı***

– Təxminən bir ay bundan əvvəl bəyan etmişdi ki, Müstəqillik bəyannaməsi müasir Ermənistan respublikası üçün təhdidlər törədir. Yəni, baş nazir bunu açıq şəkildə etiraf edib. İndi isə Ermənistan konstitusiya məhkəməsinin keçən il qəbul etdiyi qərarı əllərində bayrağa çeviriblər. Məsələnin maraqlı tərəfi odur ki, problemin qaldığını İrəvan da çox yaxşı bilir. Eyni zamanda, onların qanunvericilik aktlarında da qonşulara ərazi iddiaları ilə bağlı bəzi müddəaların hələ də qaldığı tərəflərə məlumdur.

Ermənistan SSR Ali Sovetinin iki qərarı qalmaqdadır. Bunlar da aradan qaldırılmalıdır, amma İrəvan bu addımı atmağa da tələsmir. Onu da deməliyik ki, bütün bunlara baxmayaraq, danışıqlar prosesi davam edir. Keçənilki ikitərəfli intensiv dialoqlardan sonra sülh sazişinin son mətni razılaşdırılıb. Həm də Azərbaycanın irəli sürdüyü redaksiyada razılığa gəlinib.

Bakının ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı təklifinə də müsbət yanaşdığını bildirən rəsmi İrəvan bu məsələyə müəyyən şərtləri də bağlamağa səy göstərir. Amma sülhə nailolma prosesi məhz Azərbaycanın istədiyi kimi həyata keçirilməkdədir. Sadəcə olaraq, prosesə dinamiklik qatmaqdan ötrü Ermənistan real addımlar atmalıdır.

Qanunvericilik bazasında zəruri dəyişikliklərə gəldikdə isə Azərbaycan özünün prinsipial və dəyişməz mövqeyini çoxdan ortaya qoyub: konstitusiyanı dəyişmədən sülh sazişi imzalanmayacaq! Bakı hazırda atacağı addımları mövcud duruma uyğun şəkildə, ölçüb-biçməklə atır. İrəvan isə ikitərəfli sülh danışıqlarında bir addım "irəli düşmək" üçün müxtəlif yollara əl atır. Guya, özləri üçün daha münasib vəziyyəti "formalaşdırmağa" çalışır ki, Paşinyan həm gələnilki parlament seçkilərində qalib gəlsin, həm də konstitusiya referendumuna "əlidolu" getsin. Yəni, İrəvan istəblişmentinin davranışı Azərbaycanla danışıqlarda əldə edəcəyi "uğurlara" və sülh gündəliyinin "möhkəmlənməsinə" hesablanıb. Aydındır ki, bütün bu hesablamalar hakimiyyəti əldə saxlamaq üçündür.

### Ekspert rəyi



***Rasim MUSABƏYOV,***
***Milli Məclisin deputatı, politoloq***

– Paşinyanın dediyinə görə, konstitusiyanın preambulasında əks olunmuş müddəa özünə ərazi iddiasını əks etdirmir. Konstitusiya məhkəməsinin məlum qərarından sonra hesab edir ki, bu məsələnin üstündən keçmək olar. Amma Azərbaycan haqlı olaraq həmin istinadın baş qanundan çıxarılmasını tələb etməkdədir. Ermənistanın yeni konstitusiyasında, böyük ehtimalla, həmin istinad aradan qaldırılacaq. İrəvanın istəyi budur ki, konstitusiyanın preambulasında Müstəqillik bəyannaməsi deyil, Ermənistanın Avropaya yönəlik seçimini inteqrasiyasını nəzərdə tutan müddəa yer alsın. Əslində, bununla məsələ öz həllini tapa bilər. Sadəcə olaraq, onlar yeni konstitusiyanın qəbulunu parlament seçkilərindən sonraya planlaşdırırlar. Yəni, bu proses bir ildən çox vaxt apara bilər. Azərbaycan həmin proses başa çatana qədər sülh sazişini imzalamaq niyyətində deyil.

İndiki məqamda biz İrəvanın vurnuxmasını, ayrı-ayrı yollar axtarmasını müşahidə edirik. Başqa yollar da mövcuddur. Buyursunlar, parlamentdə müvafiq qanun qəbul etsinlər. Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Sovet Ermənistanının birləşməsi əks olunmuş həmin bəyannamə vaxtilə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə beynəlxalq hüquqa zidd hesab edildiyindən ləğv olunmuşdu. İndi reallığı əks etdirməyən öz qərarlarının qüvvədən düşməsi barədə qərar çıxarsınlar. O zaman bəyannamədəki istinad ərazi iddası kimi öz əhəmiyyətini itirmiş olur. Referendumda isə konstitusiyadakı məlum istinad da aradan qaldırıla bilər. Yəni, Ermənistan parlamenti bu qərarı qəbul edəndən sonra Azərbaycanın sülh sazişini imzalayacağını istisna etmirəm. Sadəcə, ratifikasiya məsələsini yeni konstitusiyanın qəbulundan sonra da həyata keçirmək mümkündür.

Paşinyan bizim konstitusiyamızda oxşar müddəalar axtarmaqdansa, zəhmət çəkib tələblərimizi yerinə yetirsin. Digər məsələ Zəngəzur dəhlizi ilə bağlıdır. İrəvan bu barədə də çox danışır, amma konkret işə gələndə barmağını da tərpətmir. İstəyir ki, saziş tez imzalansın və Türkiyə ilə sərhədlər açılsın. Bu, olmayacaq!



“Həyatda insan hər şeyi öyrənir. İki keyfiyyətdən başqa – sədaqət və cəsarət. Bu keyfiyyətlər insanın qanında olur!”

*Heydər ƏLİYEV,*
*Ümummilli lider*

# Sədaqət və cəsarətin manifesti

**Hələ uşaq ikən şəxsi həyatımda baş verən, amma mənəvi dəyəri çox böyük olan bir faciəvi hadisə mənim üçün bu fikri daha da mənalı etmişdir... Vaxtilə Daxili İşlər Nazirliyinin əməkdaşı olan atam dostunu qorumaq üçün sinəsini qabağa verir və qəhrəmancasına həlak olur... Atamın həyat hekayəsi təkcə bir şəxsin fədakarlığı deyil.**

*Famil MUSTAFAYEV,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri, iqtisad elmləri doktoru, professor*

O, bir vətəndaşın, bir dostun qanla möhürlənmiş sədaqətidir. Sədaqət, sadəcə, dostluq yox, həm də əqidədir. Cəsarət, sadəcə, qorxmamaq deyil, gərəkli anda doğrunun yanında olmaqdır. Mən hələ 12 yaşında ikən atamın timsalında bir insanın dostu uğrunda necə canını fəda edə biləcəyi nümunəsinin şahidi oldum. Bu hekayə mənim üçün, sadəcə, bir ailə faciəsi deyil, bu, Ulu öndərin yuxarıdakı müdrik kəlamının həyatımdakı canlı təcəssümüdür.

Ulu öndərin sədaqət və cəsarətin irsi olması ilə bağlı fikri insan və zaman fəlsəfəsinin dərinliyinə bələd bir şəxsiyyətin, ömrünü Vətənin taleyinə bağlamış əbədi liderin qəlbindən süzülüb gəlmiş hikmətdir. Bu, bir ömrün və bütün bir dövrün fəlsəfəsidir. Bu, genetik kod və milli xarakterimizin açarıdır. Çünki sədaqət və cəsarət nə oxumaqla öyrənilir, nə də adi imtahanla yoxlanılır. O ya olur, ya da olmur. Və əgər bir insan fitrətində bu keyfiyyətləri daşıyırsa, zaman onu tarixə şanlı qəhrəman kimi həkk edir. Azərbaycan tarixində də elə bir şərəfli ömür var ki, onun hər səhifəsi sədaqət və cəsarətin dövlət miqyasında təcəssümüdür – Bu, Heydər Əliyev ömrüdür!

1980-ci illərin sonu Sovet İttifaqının süqutunun başlanğıcı və Azərbaycan xalqının öz müstəqilliyi uğrunda mübarizəyə qalxdığı bir dövr idi. Heydər Əliyev həmin illərdə Moskvada sovet ali rəhbərliyi səviyyəsində siyasi təqiblərə məruz qalsa da, geri heç bir addım atmadı. O, təzyiqlərə baxmayaraq, millətinə və dövlətinə olan sədaqətini qorudu və öz xalqının gələcəyini təmin etmək üçün daha da cəsarətli addımlar atdı.

1993-cü ildə Azərbaycan çox çətin və böhranlı bir dövrə qədəm qoydu. Dövlət idarəçiliyi böhran içində, ölkə müharibə vəziyyətində idi, vətəndaş qarşıdurması və iqtisadi çətinliklər xalqın həyatını daha da ağırlaşdırırdı. Ən çətin anlarda Heydər Əliyev xalqının çağırışına cavab verdi və geri dönməklə Azərbaycanın xilasına nail oldu. Bu onun siyasi cəsarətinin ən parlaq nümunəsi idi. O, Vətəninə, xalqına bəslədiyi dərin sədaqəti ilə siyasi iradəsini bir daha ortaya qoydu. Azərbaycanın qarşısında duran böyük çətinlikləri həll etmək üçün Heydər Əliyev ölkəni ən çətin vəziyyətdən çıxarıb sabitlik və inkişaf yoluna yönəltdi. O, siyasi müxalifətlə mübarizəni yalnız güc və hakimiyyət vasitəsilə deyil, eyni zamanda, böyük əzm, inam və sədaqətlə apardı. Onun mübarizəsi həm də öz xalqının gələcəyinə olan ümidin, inamın və əzmin qələbəsidir.

Ulu öndərin liderlik dönəminin başqa bir parlaq nümunəsi isə onun Azərbaycan xalqına göstərdiyi mənəvi sədaqətidir. O, yalnız öz iradəsi və böyük zəkası ilə xalqını təhlükələrdən qurtarmaqla kifayətlənmədi, həm də mədəniyyətimizi, tariximizi və milli kimliyimizi qorumaq üçün böyük mübarizə apardı. Onun Azərbaycanın müstəqilliyini qorumaq uğrunda mücadiləsi sədaqətin və dövlətə olan bağlılığın ən yüksək göstəricisi, ən parlaq örnəyidir.

Heydər Əliyevin həyatı cəsarət və sədaqət üzərində qurulmuşdu. Bütün xalqımız onun cəsarətinə, Vətən sevgisinə arxalanırdı. O, yalnız bir dövlət başçısı deyil, eyni zamanda, hər bir azərbaycanlının qəlbində yaşayan ölməz qəhrəmandır. Onun həyatı və fəaliyyəti, yalnız Azərbaycanın deyil, bütün dünyada tanınan və təqdir edilən bir liderin həyatının hekayəsidir. Heydər Əliyev öz xalqı ilə birgə Azərbaycanın müstəqilliyini, gücünü və nüfuzunu qorumağa nail oldu. Onun irsi, bu gün də dövlətimizin inkişafı və xalqımızın ruhunun qorunması üçün ən dəyərli qaynaq olaraq qalır. Vətənini sevmək, xalqının gələcəyi üçün təkbaşına mübarizə aparmaq ona doğulduğu gündən bəxş edilən mənəvi miras, misilsiz genetik kod idi.

Heydər Əliyevin doğum günü yalnız bir tarixi şəxsiyyətin dünyaya gəlişi deyil. Bu gün həm də Azərbaycan tarixində sədaqətin, cəsarətin, dövlətə və xalqa bağlılığın doğum günüdür! Heydər Əliyevin xalqına və dövlətinə bağlılığı müasir Azərbaycan dövlətçiliyinin əxlaqi və mənəvi təməlidir. Onun hər zaman Azərbaycan adını ucaltması, sadəcə, siyasi zəka ilə deyil, Vətənə bəslədiyi sədaqətlə mümkün olmuşdu.

Heydər Əliyevin fitrətində olan sədaqət və cəsarət adlı mənəvi irsi bu gün də yaşayır. Və bu möhtəşəm insani keyfiyyətləri qəlbində, canında, genində daşıyan siyasi varis kimi Prezident İlham Əliyev bu gün dövlətimizin əvəzolunmaz rəhbəridir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və xalqına bağlılığı, hər zaman olduğu kimi, atasından aldığı böyük siyasi, mənəvi, əxlaqi dərsin davamıdır.

Vətən müharibəsində onun göstərdiyi liderlik təkcə hərbi zəfərlə deyil, həm də milli ruhun və sədaqətin təntənəsi ilə tarixə yazıldı. İlham Əliyevin bayraq qarşısında diz çöküb onu öpməsi, sadəcə, protokol deyil. Bu, qan yaddaşından gələn, millətinə sədaqətin, xalqla birgə olmağın bariz nümunəsidir. 44 günlük savaşda Ali Baş Komandan kimi onun rəhbərliyi təkcə əsgəri əmrlər yox, həm də misilsiz mənəvi səfərbərlik idi. İlham Əliyev sübut etdi ki, sədaqəti də, cəsarəti də genetik bir şifrə kimi özündə daşıyır. Bunu heç bir təhsil, diplom qazandıra bilməz. Bu, ilahi varlıq tərəfindən seçilmiş insanlara bəxş edilən xüsusiyyətlərdir. Məhz belə şəxsiyyətlər xalqların liderləri olur!

Ulu öndər Heydər Əliyevin doğum gününü hər dəfə qeyd edərkən, sadəcə, onun fiziki doğumunu yox, həm də bir millətin ruhunun oyanışını da yad edirik. Onun sədaqəti bir ailənin deyil, bir millətin sərvətidir. Onun cəsarəti yalnız müstəqillik uğrunda deyil, həm də millətin sabahına olan inamın rəmzidir. Və bu inamı Heydər Əliyev irsinə sədaqəti, xalqının rifahı, Vətənin suverenliyi naminə cəsarəti ilə artıq dünyanın qəbul edib hesablaşdığı Prezident, Ali Baş Komandan İlham Əliyev doğruldur. Onun liderliyi təkcə idarəetmə bacarığı ilə deyil, əqidə və ruhunun gücü ilə ölçülür.

2020-ci ildə 44 gün ərzində işğalda olan torpaqlarımızın azad edilməsi uğrunda müharibəyə rəhbərlik edən, milli qürurumuzu qaytaran bir liderin qarşısında heç bir güc tab gətirə bilmədi. İlham Əliyev bu qələbəni təkcə silah gücünə deyil, həm də zəka, iradə, cəsarət və xalqına olan sonsuz sədaqəti hesabına qazandı.

Heydər Əliyev irsi təkcə idarəçilik modeli deyil, həm də mənəvi məktəbdir. Heydər Əliyevin həyatının hər səhifəsi sədaqət və cəsarət prinsiplərinin canlı nümunəsidir. Ulu öndər son nəfəsinədək xalqına sədaqətini nümayiş etdirdi və yarımçıq qalan işlərinin məhz İlham Əliyev tərəfindən tamamlanacağına inamını ifadə etdi. Tarix göstərdi ki, Ulu öndər tamamilə haqlıdır. Həqiqətən də Prezident İlham Əliyev Heydər Əliyev siyasi məktəbinin ən mötəbər davamçısı, xalqın əsl lideridir!

Yaşadığımız hər gün onun simasında sədaqət anlayışının, cəsarət nümunəsinin və dövlətə bağlılığın təntənəsinə şahid oluruq!

Ulu öndər Heydər Əliyevin siyasi irsi, sadəcə, bir dövlətin qurulmasına yox, bir xalqın mənəvi dirçəlişinə yönəlmişdi. O, təkcə yeni idarəetmə sistemini deyil, həm də sədaqət və cəsarət məktəbini yaratdı.

Bu gün İlham Əliyevin timsalında biz liderin genetik sədaqətini və fitri cəsarətini görürük. O, təkcə atasının yolunu davam etdirmir, həm də o yolu Zəfərlə taclandırır. İlham Əliyev, eyni zamanda, diplomatik manevr ustası, beynəlxalq siyasi müstəvidə qətiyyət abidəsi kimi çıxış etdi. O, öz atasının mənəvi mirasını qorumaqla qalmadı, onu qalibiyyətə çevirdi. “Dəmir yumruq” düşmənin başı üzərindəki möhtəşəm qüvvə olmaqla bərabər, xalqımızın tarixində sədaqətin və cəsarətin rəmzinə çevrildi. Həmin “dəmir yumruğ”un sahibi bir zamanlar Heydər Əliyevin cəsarətli əlindən tutmuşdu.

İlham Əliyev Azərbaycanı yeni zirvələrə aparır. Onun cəsarəti və iradəsi, Azərbaycanın gələcəyini işıqlandıran ən mühüm amildir. İlham Əliyev Heydər Əliyevin irsindən güc alaraq, Azərbaycanı inamla gələcəyə aparan liderdir.

Heydər Əliyevin fitrətindəki sədaqət və cəsarət İlham Əliyevin iradəsində zəfərə çevrildi. Ata oğula yalnız siyasi miras deyil, həm də mənəvi bir and, genetik bir əmanət ötürdü – Vətəni qorumaq, xalqına və millətinə sədaqətlə xidmət etmək, doğru yolda cəsarətlə addımlamaq!

Bu iki liderin simasında sədaqət və cəsarət nəinki bir nəsil mirası, həm də dövlətin möhkəm təməli, xalqın inam və qürur mənbəyidir.

# Gürcüstan ABŞ ilə strateji tərəfdaşlığı önəmli sayır

**"Gürcüstan hələ də demokratik ölkədirmi? Gürcüstan hələ də Aİ-yə üzv olmaq istəyirmi?”. Bunu Avropa İttifaqının Gürcüstandakı səfiri Pavel Herçinski ölkə parlamentinin üçüncü oxunuşda qəbul etdiyi “siyasi partiyaların qadağan olunmasına dair” qanun layihəsinə münasibət bildirərkən deyib.**

Açıq qərəzin hiss olunduğu çıxışında səfir Gürcüstanın birpartiyalı dövlətə çevriləcəyi, siyasi müxalifətin qadağan ediləcəyi, vətəndaş cəmiyyətinin xaricə qaçmağa məcbur olacağı, azlıqların hüquqlarının qorunmadığı təqdirdə Aİ-yə üzvü ola bilməyəcəyini deyib.

Bəli, Aİ-də çoxları belə hesab edir ki, Gürcüstan cəzalandırılmalıdır. Çünki bu ölkə Aİ və ABŞ-dən uzaqlaşaraq Rusiya, Çinlə yaxınlaşıb. Həmçinin bura ötən il



Gürcüstanda keçirilən parlament seçkiləri nəticələrinin Avropanın istəklərinə uyğun olmaması, küçə etirazçılarına qarşı olan təzyiqlər və s. daxildir.

Bir sözlə, Qərb Gürcüstanın hazırkı hakimiyyətini demokratiyadan geri çəkilməkdə, anti–Qərb ritorikasında və konspirativ nəzəriyyələrin yayılmasında ittiham edir. Lakin indiyə qədər Tbilisinin “cəzalandırılması” mümkün olmayıb. Çünki Aİ-də belə qərarlar yekdilliklə qəbul edilir. Məsələn, Macarıstan və Slovakiya Gürcüstanı dəstəkləyir. Amma Polşa və digər Baltikyanı ölkələr Gürcüstana qarşı sərt mövqe sergiləyirlər. Ona görə də ittifaq daxilindəki fikir ayrılıqlarının yekunda kompromislə nəticələnəcəyi məlum deyil.

*

Xatırladaq ki, parlament siyasi partiyaların qadağan olunması ilə bağlı qanunvericilik dəyişiklikləri paketini 80 səslə təsdiqləyib. Layihəyə əsasən, Konstitusiya Məhkəməsi artıq qadağan olunmuş partiyanın bəyan olunmuş məqsədini, fəaliyyət mahiyyətini və tərkibini təkrarlayan partiyanı qadağan edə bilər.

Aİ səfirinin son açıqlamasına hakim partiyadan cavab gecikməyib. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili bildirib ki, Aİ ilə münasibətlərdən Gürcüstana qarşı siyasi təzyiq aləti kimi istifadə edilir. Nazirin sözlərinə görə, Avrointeqrasiya təkcə Gürcüstanın xarici siyasət prioriteti deyil, həm də xalqın Avropa ailəsinə qoşulmaqla bağlı tarixi və milli istəyidir: “Aİ-yə üzv dövlətlər arasında da bu məsələ ilə bağlı yekdil fikir yoxdur. Bu, təkcə Gürcüstanda deyil, Aİ daxilində də müzakirə mövzusudur. Sağlam yanaşmalar var, lakin təəssüf ki, bu yanaşmalar bəzən dezinformasiya və Gürcüstanın imicinə zərər vuran bəyanatlarla kölgədə qalır”.

Boçorişvili əlavə edib ki, Gürcüstan Aİ-nin əsasını təşkil edən dəyərlərə sadiqliyini dəfələrlə sübut edib və bu sadiqlik təkcə bəyanatlarla deyil, konkret fəaliyyətlərlə özünü göstərib: “Gürcüstan hər zaman Avropanın bir hissəsi olub və müasir Avropa dəyərlərinin fəal müdafiəçisidir. Bizim regionda Qərb dövlətlərinin etibarlı tərəfdaşı olduğumuz dəfələrlə sübut olunub. Bu münasibətlər qarşılıqlı hörmətə əsaslanmalıdır. Gürcüstan bu münasibətləri təkbaşına qoruya bilməz – biz avropalı tərəfdaşlarımızdan da eyni anlayış və səmimiyyət gözləyirik”.

*

Baş nazir İrakli Kobaxidze isə bildirib ki, Gürcüstan üçün əsas prioritet məsələ Aİ-yə üzvlükdür: “Bu istiqamətdə müəyyən çağırışlarımız var. Lakin ümid edirik ki, ölkəmizdə və regionda sülhün bərpası ilə Gürcüstanın inteqrasiyası daha intensiv şəkildə həyata keçiriləcək. Müxtəlif ölkələr arasında düzgün münasibətlər, inkişaf üçün əsas məsələ sülhdür. Buna görə də regionumuzda sülhün möhkəmləndirilməsinə diqqət yetirilməlidir.

Hazırda Gürcüstan Aİ ilə münasibətlərlə bağlı gözləmə rejimindədir. Qarşı tərəfin münasibətlərin yenidən qurulması istiqamətində addım atmasını gözləyirik... Bu gün Avropa bürokratiyası təəssüf olsun ki, “dərin dövlət”in təsiri altındadır. Əgər Avropa bu təsiri dəf etməyə nail olsa, münasibətlər bərpa olunacaq. Biz bunu səbirlə gözləyirik. Əminəm ki, münaqişə bitdikdən sonra Gürcüstanın hazırkı hakimiyyətinə qarşı təzyiqlər də azalacaq”.

Bu açıqlamalardan da aydın olur ki, Gürcüstan hakimiyyəti Aİ ilə münasibətləri bərpa etmək üçün Qərbdən qarşılıqlı addımların atılmasını gözləyir.

Bu arada, Gürcüstanla Aİ arasındakı gərginlik fonunda Tbilisi Vaşinqtonla real və konkret nəticələrə əsaslanan strateji tərəfdaşlığı bərpa etməyə hazırlaşır. Baş nazir İrakli Kobaxidze “Imedi LIVE” verilişində deyib ki, ABŞ ilə strateji tərəfdaşlığın yenilənməsinə tam açığıq: “İstəyirik ki, bu münasibətlər konkret nəticələr doğuran, qarşılıqlı faydaya əsaslanan tərəfdaşlıq olsun. Hazırıq ki, hər iki ölkə üçün konkret yol xəritəsi hazırlayaq, burada həm Gürcüstanın, həm də ABŞ-ın maraqları və faydaları əks olunsun”.



Kobaxidzenin Trampa açıq məktubunda isə bildirilib ki, Gürcüstanın illərlə ABŞ-ın ən çətin regionda ən etibarlı tərəfdaşı olub, İraq və Əfqanıstandakı hərbi missiyalarda iştirak etməklə ABŞ büdcəsinə 2,5 milyard dollar qənaət etdirib. O, ABŞ-ın Gürcüstana ayırdığı real yardımın bu rəqəmlə müqayisədə daha az olduğunu vurğulayıb.

Baş nazir USAID, NED, Soros Fondu və digər qurumların Gürcüstanda radikalizm və ekstremizmi təşviq etmək, Pravoslav Kilsəsinin nüfuzunu zədələmək və dövlət institutlarını zəiflətmək istiqamətində fəaliyyət göstərdiyini, bu proseslərin ABŞ-ın real yardımına daxil olmadığını qeyd edib.

Kobaxidze Tramp Administrasiyasının USAID, NED və digər qurumların “cinayətkar fəaliyyətlərini” tənqid etməsini alqışladığını desə də, Bayden dövründə planlaşdırılmış inqilab cəhdlərinin qarşısını alan Gürcüstan rəsmilərinə qarşı tətbiq olunan sanksiyaların hələ də qüvvədə qalmasını tənqid edib.

Məktubda ABŞ Konqresinin qəbul etdiyi və Gürcüstan xalqına qarşı “düşmən mövqeyi” kimi qiymətləndirilən “Dostluq aktı” da tənqid olunub. İ.Kobaxidze bu sənədi Corc Oruellin “düşmən dostdur” modeli ilə müqayisə edib və bildirib ki, bu akt ABŞ-ın Gürcüstana münasibətdə inamı daha da zəiflədir. Sənəddə aktın saxta ittihamlara əsaslandığı, Gürcüstana və gürcü xalqına düşmənçilik ruhunda tərtib olunduğu xüsusi qeyd olunub. Vurğulanıb ki, “Meqobari aktı” Gürcüstanda əhəmiyyətli demokratik geriləmənin yaşanması, hökumətin avroatlantik inteqrasiyanın qarşısını alması, Gürcüstanın Rusiya, Çin və “digər avtoritar rejimlərlə” qeyri-münasib əlaqələr qurması kimi yalan iddialara əsaslanıb.

Baş nazir ABŞ administrasiyasının Gürcüstanla strateji tərəfdaşlığı yenidən quracağına ümid etdiyini vurğulayıb. O, Tramp rəhbərliyini “dərin dövlət”ə qarşı mübarizədə səmimi olmağa çağıraraq, bu prosesin Gürcüstan–ABŞ münasibətlərində dönüş nöqtəsi ola biləcəyini bildirib.

Baş nazir açıq şəkildə bildirib ki, ölkəsi ABŞ ilə münasibətləri normallaşdırmaqda maraqlıdır.

***Pünhan ƏFƏNDİYEV***
***X Q***

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# "Dövlət qulluqçularının reyestri" informasiya ehtiyatı haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə "Dövlət qulluqçularının reyestri" informasiya ehtiyatının (bundan sonra – Reyestr) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. Reyestr dövlət qulluqçularının (o cümlədən stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər, habelə dövlət qulluğuna xitam verilmiş şəxslər də daxil olmaqla) uçotunun aparılmasını, dövlət qulluqçuları barədə məlumatların toplanılmasını, işlənilməsini, mühafizəsini və saxlanılmasını, dövlət qulluğu sahəsində idarəetmənin təkmilləşdirilməsini, dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətinin öyrənilməsini, dövlət qulluqçularına verilən sertifikatların uçotunun aparılmasını, dövlət qulluğu ilə bağlı təhlillər aparılmasını, proqnoz və hesabatların hazırlanmasını təmin edir.

1.3. Reyestrin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

1.4. Reyestrdə yaradılan, əldə edilən, toplanılan informasiya Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların Reyestrdə toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların Reyestrdə toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. Reyestrin sahibi Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, operatoru Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzidir.

1.7. Reyestrin iştirakçıları bu Əsasnamədə nəzərdə tutulmuş informasiya proseslərində iştirak edən dövlət orqanları (qurumları), istifadəçiləri isə dövlət qulluqçuları, o cümlədən stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər, habelə dövlət qulluğuna xitam verilmiş şəxslərdir.

1.8. Reyestrin fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.9. Reyestr Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.10. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. Reyestrin texniki-texnoloji infrastrukturu**

2.1. Reyestrin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı Reyestrin bu Əsasnamənin 1.2-ci bəndində qeyd edilən funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə Reyestrdən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. Reyestr fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə operativ və keyfiyyətli məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq Reyestrin telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. Reyestrin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları – operatorun aidiyyəti struktur bölməsi tərəfindən;

2.4.2. Reyestrin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. Reyestrə daxil edilən və ötürülən məlumatlar Reyestrin informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli Reyestrin informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Reyestr, o cümlədən Reyestrdə toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. Reyestrdə aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. Reyestrə daxil edilən və ötürülən məlumatlar**

3.1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının reyestrinin aparılması Qaydası"nın 2.1.1.1-ci abzasında, 2.1.6-cı, 2.1.7-ci, 2.1.9 – 2.1.11-ci yarımbəndlərində qeyd edilmiş məlumatlar Reyestrə iştirakçılar tərəfindən daxil edilir. Həmin Qaydanın 2.1-ci bəndində qeyd olunmuş digər məlumatlar isə bu Əsasnamənin 3.2-ci və 3.3-cü bəndləri nəzərə alınmaqla Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə ötürülür.

3.2. Reyestrin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

3.3. Reyestrlə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, məlumatlar (sənədlər) Reyestrə iştirakçılar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə, onların elektron kabinetləri vasitəsilə daxil edilir.

**4. Reyestrdən istifadə qaydası**

4.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan iştirakçıların Reyestrdən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

4.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan iştirakçıların Reyestrdən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda iştirakçının rəhbər şəxsi tərəfindən Reyestrdə qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər Vahid Giriş Sistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq Reyestrdən istifadə edirlər.

4.3. Fiziki şəxslər Vahid Giriş Sistemi vasitəsilə Reyestrdə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq Reyestrdən istifadə edirlər.

4.4. Reyestrdən məlumat almağa görə ödəniş tələb olunmur.

**5. Sahibin vəzifələri və hüquqları**

5.1. Reyestrin fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

5.1.1. Reyestrin idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

5.1.2. Reyestrin informasiya təhlükəsizliyini XRİTDX, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX) və operator ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) ilə birlikdə təmin etmək;

5.1.3. Reyestrə çıxışı olan, habelə Reyestrin aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

5.1.4. tələb edilən məlumatlar digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

5.1.5. Reyestrdən sərbəst və maneəsiz istifadənin, habelə Reyestrin dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

5.1.6. Reyestrdə dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

5.1.7. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

5.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

5.2. Reyestrin fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

5.2.1. Reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

5.2.2. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**6. Operatorun vəzifələri və hüquqları**

6.1. Operatorun vəzifələri aşağıdakılardır:

6.1.1. Reyestrin dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, habelə fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.2. fərdi məlumatların Reyestrdə toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.3. Reyestrin təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Nazirliyə zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə Reyestrə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.4. Reyestrin monitorinqi və auditi üçün XRİTDX-nin yerində baxış keçirməsinə şərait yaratmaq, bu məqsədlə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş məlumatları (sənədləri) XRİTDX-yə təqdim etmək;

6.1.5. Reyestrin informasiya təhlükəsizliyini XRİTDX, DTX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. Reyestrin informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. Reyestrə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.8. Reyestrin, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

6.1.9. Reyestrin təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün tədbirlər görmək, bu mümkün olmadıqda isə Reyestrin "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

6.1.10. Reyestrin fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahibə məlumat verməklə, texniki tədbirlər görmək və bu barədə iştirakçıları məlumatlandırmaq;

6.1.11. Reyestrdən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə Reyestrin proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

6.1.12. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) Reyestrə daxil etmək;

6.1.13. Reyestrə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.14. Reyestri EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatları və sistemləri ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

6.1.15. Reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.16. Reyestrin komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

6.1.17. Nazirliyin və sahibin fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təklifləri, habelə öz təşəbbüsü əsasında Reyestrdə dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

6.1.18. sahibin göstərişi, habelə öz təşəbbüsü əsasında, normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

6.1.19. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı rəsmi sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

6.1.20. Reyestrin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

6.1.21. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.22. aidiyyəti qurumların Reyestrin fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.23. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. Operatorun aşağıdakı hüquqları vardır:

6.2.1. Reyestrin fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.2. Reyestrin formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə müvafiq ölkədaxili və beynəlxalq qurumlarla əməkdaşlıq etmək;

6.2.3. Reyestrin təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

6.2.4. Reyestrdən sərbəst və maneəsiz istifadə, eləcə də onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işi aparmaq;

6.2.5. Reyestrlə məlumat mübadiləsində iştirak edəcək digər dövlət informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması məqsədilə məsələ qaldırmaq;

6.2.6. Reyestrin parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

6.2.7. iştirakçılar və istifadəçilər Reyestrin təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, sahiblə razılaşdırmaqla Reyestrə giriş imkanını ləğv etmək və ya məhdudlaşdırmaq;

6.2.8. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. İştirakçıların vəzifələri və hüquqları**

7.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

7.1.1. Reyestrə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.2. Reyestrə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

7.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə Reyestrə daxil etmək (ötürmək);

7.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

7.1.5. Reyestrdə olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

7.1.6. Reyestrdə saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və operatora məlumat vermək;

7.1.7. sahibin və operatorun Reyestrə daxil etdikləri və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

7.1.8. Reyestrin fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

7.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə operatora və Nazirliyə məlumat vermək;

7.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

7.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

7.2.1. Reyestrin fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və ondan belə məlumatları (sənədləri) almaq;

7.2.2. Reyestrin təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**8. İstifadəçilərin hüquqları**

8.1. İstifadəçilərin Reyestrdən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

8.1.1. Reyestrdəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

8.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özü barəsində məlumatlarla tanış olmaq və onları əldə etmək üçün operatora müraciət etmək;

8.1.3. özü barəsində məlumatlarda uyğunsuzluq, çatışmazlıq və səhvlər aşkar olunduqda, müvafiq düzəlişlər edilməsi üçün aidiyyəti iştirakçıya, bu mümkün olmadıqda isə təsdiqedici sənədlər əsasında operatora müraciət etmək;

8.1.4. Reyestrin fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

8.1.5. Reyestrdən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

8.1.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət qulluqçularının reyestrinin aparılması qaydası

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 15-3.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və dövlət qulluqçularının reyestrinin (bundan sonra – Reyestr) aparılmasının hüquqi və təşkilati əsaslarını müəyyən edir.

1.2. Reyestr dövlət qulluqçuları (o cümlədən stajçı kimi və sınaq müddəti ilə qulluğa qəbul edilmiş şəxslər, habelə dövlət qulluğuna xitam verilmiş şəxslər də daxil olmaqla) barədə məlumatlardan ibarət dövlət informasiya ehtiyatıdır.

1.3. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 6.4-cü maddəsinə əsasən publik hüquqi şəxsin dövlət qulluqçusuna bərabər tutulan əməkdaşları haqqında məlumatlar bu Qaydaya uyğun olaraq Reyestrə daxil edilir.

1.4. Reyestr Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (bundan sonra – Mərkəz) tərəfindən elektron qaydada "Dövlət qulluqçularının reyestri" informasiya ehtiyatı üzərindən aparılır.

1.5. Reyestrin aparılmasına nəzarət Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası tərəfindən həyata keçirilir.

**2. Reyestrə daxil edilən məlumatlar**

2.1. Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

2.1.1. dövlət qulluqçusunun fərdi məlumatları:

2.1.1.1. dövlət qulluqçusunun şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, fərdi identifikasiya nömrəsi, faktiki yaşayış ünvanı, iş və yaşayış yeri üzrə stasionar telefon nömrələri, elektron poçt ünvanı;

2.1.1.2. dövlət qulluqçusunun şəxsiyyət vəsiqəsini verən dövlət orqanının adı, verildiyi tarix və etibarlılıq müddəti;

2.1.1.3. dövlət qulluqçusunun soyadı, adı, atasının adı, eləcə də soyadı, adı və ya atasının adı dəyişdiyi halda, səbəbi və tarixi, habelə cinsi, doğulduğu tarix və yer (ölkə, şəhər, rayon, qəsəbə və kənd), qeydiyyat ünvanı, ailə vəziyyəti;

2.1.1.4. dövlət qulluqçusunun fotoşəkli;

2.1.1.5. dövlət qulluqçusunun mobil telefon nömrəsi;

2.1.1.6. dövlət qulluqçusunun atası, anası, qardaşları, bacıları, arvadı (əri), uşaqları, qayınatası, qayınanası, qayınları və baldızlarının hər birinin soyadı, adı, atasının adı, doğum tarixi və yeri (ölkə, şəhər, rayon, qəsəbə və kənd), iş yeri və vəzifəsi haqqında məlumatlar;

2.1.2. dövlət qulluçusunun əmək fəaliyyəti haqqında məlumatlar:

2.1.2.1. dövlət qulluqçusunun əvvəllər və hazırda qulluq keçdiyi dövlət orqanının (qurumunun) adı və kateqoriyası, habelə əvvəllər işlədiyi qurumun adı, dövlət qulluqçusunun əvvəllər və hazırda tutduğu (işlədiyi) vəzifənin adı, dövlət qulluğu vəzifəsinin inzibati və ya yardımçı olması, təsnifatı, növü, qrupu və altqrupu, vəzifə təlimatı;

2.1.2.2. staj və sınaq keçmə statusu, staj və sınaq keçmə dövrü (staj və sınaq müddətinin başlama və bitmə tarixləri);

2.1.2.3. əmək müqaviləsinin statusu (hüquqi qüvvədə olması və ya qüvvədən düşməsi);

2.1.2.4. əmək müqaviləsinin, o cümlədən sonuncu əmək müqaviləsinin bağlanılma, hüquqi qüvvəyə minmə, qüvvədən düşmə və ya müddətinin bitmə tarixi və əsası (səbəbi);

2.1.2.5. əmək müqaviləsinə və dövlət qulluğuna xitam verilməsi haqqında əmrin (sərəncamın, qərarın) tarixi, nömrəsi və əsası;

2.1.2.6. dövlət qulluğuna qəbul əmrində (sərəncamında, qərarında) istinad olunan normativ hüquqi aktın struktur elementi;

2.1.2.7. əmək stajı, o cümlədən dövlət qulluğunda qulluq stajı;

2.1.2.8. əlavə iş yeri;

2.1.3. dövlət qulluqçusunun dövlət məvacibi haqqında məlumatlar:

2.1.3.1. dövlət qulluqçusunun vəzifə maaşının məbləği;

2.1.3.2. dövlət qulluqçusunun ixtisas dərəcəsinə görə əlavə haqqın məbləği;

2.1.4. dövlət qulluqçusunun dövlət qulluğu keçməsi haqqında məlumatlar:

2.1.4.1. inzibati vəzifənin tutulması üzrə iştirak etdiyi test imtahanlarının və müsahibələrin tarixləri, nəticələri və növləri;

2.1.4.2. test imtahanlarını və müsahibələri keçirən dövlət orqanlarının (qurumlarının) adları;

2.1.4.3. xidməti fəaliyyətin qiymətləndirilməsinin və keçirilmiş attestasiyanın tarixləri və nəticələri;

2.1.4.4. dövlət qulluğu vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatın verilməsi barədə qərarın tarixi və nömrəsi, həmin sertifikatın etibarlılıq müddəti və tipi (müddətli olması), müsahibədə iştirak etmək hüququ verdiyi inzibati vəzifənin adı, təsnifatı, növü, qrupu və altqrupu;

2.1.4.5. dövlət qulluğunda fəaliyyətinin davam etdirilməsini təsdiq edən sertifikatın verilməsi barədə qərarın tarixi və nömrəsi, həmin sertifikatın etibarlılıq müddəti;

2.1.4.6. dövlət qulluqçusunun ehtiyat kadrlar siyahısında olması, əsası, ehtiyat kadrlar siyahısına daxil edildiyi dövlət orqanının (qurumunun) və vəzifənin adı, dövlət qulluğu vəzifəsinin inzibati və ya yardımçı olması, təsnifatı, növü, qrupu və altqrupu, siyahıda olma müddəti və siyahıdan çıxarılma əsası;

2.1.4.7. dövlət qulluqçusunun ixtisas dərəcələrinin adları, onların verilməsi haqqında sənədlərin nömrələri və tarixləri, vaxtından əvvəl verilməsi haqqında məlumat;

2.1.4.8. dövlət qulluqçusunun xüsusi, hərbi və diplomatik rütbələrinin adları, verilməsi haqqında sənədlərin nömrələri və tarixləri;

2.1.5. dövlət qulluqçusunun təhsili və əlavə təhsili haqqında məlumatlar:

2.1.5.1. bitirdiyi təhsil müəssisələrinin adları;

2.1.5.2. təhsil dövrü (təhsil müəssisəsinə daxil olduğu və bitirdiyi tarix), təhsil və təhsilalma formaları;

2.1.5.3. təhsilin pilləsi və səviyyəsi;

2.1.5.4. təhsil haqqında sənədin növü, seriyası, nömrəsi, verilmə tarixi;

2.1.5.5. təhsil haqqında sənəd üzrə ixtisasının adı, şifrəsi, peşəsinin adı;

2.1.5.6. xaricdə təhsil aldığı təhsil müəssisələrinin adları və aid olduğu ölkələr, aldığı ixtisasların adları;

2.1.5.7. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair şəhadətnamənin nömrəsi, verilmə tarixi və tanınmanın növü;

2.1.5.8. əlavə təhsil proqramlarının (kurslarının) adları;

2.1.5.9. əlavə təhsil proqramlarını (kurslarını) təşkil edən təhsil müəssisələrinin və digər qurumların adları;

2.1.5.10. əlavə təhsilin dövrü (başlama və bitmə tarixləri) və istiqaməti;

2.1.5.11. müvafiq təhsil sənədlərinin seriyası, nömrəsi və verildiyi tarix;

2.1.6. dövlət qulluqçusunun elmi fəaliyyəti haqqında məlumatlar:

2.1.6.1. elmi dərəcəsi və elmi adı;

2.1.6.2. elmi dərəcəni və elmi adı verən qurumun adı;

2.1.6.3. elmi dərəcənin və elmi adın verildiyi tarix;

2.1.6.4. elmi dərəcənin və elmi adın verildiyi diplomun (attestatın) nömrəsi və tarixi;

2.1.6.5. elmi istiqamət;

2.1.7. dövlət qulluqçusunun dövlət təltifləri (orden və medalları), fəxri adları, dövlət mükafatları və fərdi mükafatları haqqında məlumatlar, onların verilmə sənədlərinin nömrələri və tarixləri;

2.1.8. dövlət qulluqçusunun hərbi vəzifəsi (hərbi mükəlləfiyyətli olub-olmaması), hərbi xidmət keçməsi, həqiqi hərbi xidmət dövrü və bu dövrdəki vəzifəsi haqqında məlumatlar;

2.1.9. dövlət qulluqçusunun xarici dil bilikləri və həmin dilləri bilmə səviyyəsi haqqında məlumatlar;

2.1.10. dövlət qulluqçusunun əmək (peşə) fəaliyyəti ilə bağlı iştirak etdiyi konfrans, seminar və digər tədbirlərin adları, tarixləri, yerləri və təşkilatçıları;

2.1.11. dövlət qulluğunda tətbiq edilmiş intizam tənbehi tədbirinin növü və tarixi, qüvvədəolma müddəti, vaxtından əvvəl götürülməsi haqqında məlumat.

**3. Reyestrin aparılması qaydası**

3.1. Reyestrə şəxs haqqında məlumatların ilk dəfə daxil edilməsinə əsas həmin şəxsin dövlət qulluğu vəzifəsinə (o cümlədən staj və sınaq müddətinə) təyin edilməsidir. Dövlət qulluğu vəzifəsinə təyin edilmiş şəxs haqqında məlumatlar aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən 5 (beş) iş günü müddətində Reyestrə daxil edilir.

3.2. Dövlət qulluğu vəzifəsinə təyin edilmiş şəxs haqqında məlumatların Reyestrdə arxivləşdirilməsi "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 33.1-ci maddəsində nəzərdə tutulmuş dövlət qulluğuna xitam verilməsi hallarında həyata keçirilir. Dövlət qulluğuna xitam verilmiş şəxs haqqında məlumatlar aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən 5 (beş) iş günü müddətində Reyestrə daxil edilir.

3.3. Reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik olduqda həmin dəyişikliyin baş verdiyi vaxtdan, məlumatlar dövlət qulluqçusu tərəfindən aidiyyəti dövlət orqanına (qurumuna) təqdim edilməli olan hallarda isə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 fevral tarixli 527 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçusunun şəxsi işinin aparılması Qaydaları"nın 2.5-ci bəndində nəzərdə tutulmuş müddətdə təqdim edildiyi tarixdən 5 (beş) iş günü müddətində aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən Reyestrdəki məlumatlarda müvafiq dəyişiklik edilir.

3.4. Reyestrə daxil edilmiş məlumatların hüquqi aktlara uyğunluğu, həqiqiliyi, tamlığı, düzgünlüyü və vaxtında daxil edilib-edilməməsi Mərkəz tərəfindən yoxlanılır. Həmin məlumatlarda uyğunsuzluqlar və çatışmazlıqlar aşkar edildikdə bu barədə aidiyyəti dövlət orqanına (qurumuna) bildiriş göndərilir.

3.5. Aidiyyəti dövlət orqanı (qurumu) bu Qaydanın 3.4-cü bəndində qeyd edilən bildiriş əsasında 5 (beş) iş günü müddətində uyğunsuzluqları və çatışmazlıqları aradan qaldıraraq məlumatları yoxlanılması üçün Mərkəzə təqdim edir.

3.6. Bu Qaydanın 3.5-ci bəndində qeyd edilən müddətdə uyğunsuzluqları və çatışmazlıqları aradan qaldırmaq mümkün olmadıqda, aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən 2 (iki) iş günü müddətində bunun səbəbləri, habelə uyğunsuzluqlar və çatışmazlıqlar aradan qaldırıldıqdan sonra məlumatların təqdim ediləcəyi barədə Mərkəzə bildiriş göndərilir. Həmin uyğunsuzluqlar və çatışmazlıqlar aradan qaldırıldıqdan sonra məlumatlar aidiyyəti dövlət orqanı (qurumu) tərəfindən 3 (üç) iş günü müddətində yoxlanılması üçün yenidən Mərkəzə təqdim edilir. Mərkəz tərəfindən təsdiq edildikdən sonra məlumatlar Reyestrə daxil edilir.

3.7. Bu Qayda qəbul edilənədək dövlət qulluğuna qəbul edilmiş və dövlət qulluğuna xitam verilmiş şəxs barəsində məlumatlar Reyestrdə olmadığı halda, həmin məlumatlar şəxsin müraciəti əsasında onun qulluq keçdiyi sonuncu dövlət orqanı (qurumu), yaxud həmin dövlət orqanının (qurumunun) hüquqi varisi olan dövlət orqanı (qurumu) tərəfindən Mərkəzə təqdim edilir, bu mümkün olmadıqda isə təsdiqedici sənədlər əsasında Mərkəz tərəfindən Reyestrin arxiv hissəsinə daxil edilir.

3.8. Aidiyyəti dövlət orqanı (qurumu) ilə Mərkəz arasında məlumat mübadiləsi "Dövlət qulluqçularının reyestri" informasiya ehtiyatı üzərindən həyata keçirilir.

# AYİB-in “Unibank”a maliyyə dəstəyi

## *Ayrılan vəsait ticarətin genişlənməsinə yönəldiləcək*

**“Unibank” və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) arasında ticarət əməliyyatlarının dəstəklənməsinə yönələn yeni tərəfdaşlıq razılaşması əldə olunub. AYİB Azərbaycanda ilk dəfə “Unibank”a Ticarətin Asanlaşdırılması Proqramı çərçivəsində 5 milyon dollar (təxminən 4,4 milyon avro) məbləğində maliyyələşmə limiti ayırıb. Respublikamızın sistem əhəmiyyətli banklarından biri olan “Unibank”la bu razılaşma AYİB-in Londonda keçirilən 2025-ci il illik yığıncağı çərçivəsində imzalanıb.**

Bu əməkdaşlıq “Unibank”a özəl sektorun beynəlxalq ticarət əməliyyatlarını daha səmərəli şəkildə maliyyələşdirməyə və dünya bankları ilə əlaqələri genişləndirməyə imkan verəcək. Eyni zamanda, bu təşəbbüs ölkəmizin qeyri-neft sektorunun inkişafını və idxal-ixrac əməliyyatlarının artmasını dəstəkləyəcək.

AYİB-nin Mərkəzi Asiya, Qafqaz və Türkiyə üzrə maliyyə institutları direktoru Corc Orlov bildirib: “Londonda keçirilən AYİB-in illik yığıncağında “Unibank”dan olan həmkarlarımızı qarşılamaqdan məmnunam. Bu, cari il ərzində imzalanan ikinci razılaşmadır və bu dəfə xarici ticarətin dəstəklənməsi məqsədilə ticarət maliyyələşməsi xətti açılır. Əminəm ki, bu əməkdaşlıq “Unibank”ın ticarət maliyyələşməsi sahəsində fəaliyyətini genişləndirməsinə və Azərbaycanda ixrac-idxal əməliyyatlarının inkişafına töhfə verəcək”.

“Unibank”nın baş investisiya inzibatçısı Emin Rəsulzadənin sözlərinə görə, AYİB ilə əməkdaşlığın daha bir mərhələyə keçməsi qürurverici hadisədir. Müştərilərin xarici ticarət əməliyyatlarının inkişafı istiqamətində atdığı addımların belə nüfuzlu bir institut – AYİB tərəfindən tanınması və dəstəklənməsi “Unibank” üçün böyük önəm daşıyır. Bu tərəfdaşlıq “Unibank”ın Azərbaycanın qeyri-neft sektorunun inkişafına yönələn strategiyasında mühüm yer tutur.

AYİB-nin Ticarətin Asanlaşdırılması Proqramı hazırda 27 ölkədə fəaliyyət göstərir və 125-dən çox emissiya bankı, 800-dən artıq təsdiqləyici bankdan ibarət geniş şəbəkəni əhatə edir. Proqram yerli banklara təqdim olunan zəmanətlər vasitəsilə beynəlxalq ticarəti asanlaşdırır və yeni bazarlara çıxışı təşviq edir. AYİB Azərbaycanda aparıcı institusional investorlardan biridir və bu bank indiyədək ölkə iqtisadiyyatının müxtəlif sahələrində, təxminən, 4 milyard avro məbləğində 200-ə yaxın layihəyə sərmayə qoyması ilə diqqət çəkir. Bankın yenilənən Azərbaycan strategiyası ölkənin qeyri-neft sektorunun inkişafını və yerli maliyyə institutlarının dəstəklənməsini, eləcə də “yaşıl” iqtisadiyyata sərmayələrin artırılmasını şərtləndirir.




Xatırladaq ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq ölkəmizin iqtisadi inkişaf strategiyasının mühüm komponentlərindən birinə çevrildi. Bu qurumlardan biri də AYİB oldu.

1991-ci ildə təsis olunan bu bank keçid iqtisadiyyatları üçün bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan dayanıqlı inkişafı təşviq etməyi qarşıya mühüm məqsəd kimi qoyub. Azərbaycanla AYİB arasında əməkdaşlıq isə 1992-ci ildən başlayaraq tədricən dərinləşin və müxtəlif sektorlarda konkret nəticələr doğurub.

AYİB respublikamızda fəaliyyətinə 1992-ci ildə ölkənin quruma üzv qəbul olunması ilə başlayıb. Bankın ilk investisiyaları 1990-cı illərin ortalarında enerji sektoru və maliyyə xidmətlərinə yönəlib. Azərbaycanın zəngin enerji ehtiyatlarının Avropa bazarlarına çıxarılmasında AYİB-in rolu xüsusilə önəmli olub. Bu dövrdə bu bank Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac boru kəməri və “Şahdəniz” qaz layihəsi kimi irimiqyaslı enerji layihələrinin maliyyələşdirilməsində iştirak edib. Bu investisiyalar Azərbaycanın enerji ixracatçısı kimi mövqeyini daha da möhkəmləndirib.

2000-ci illərdən etibarən AYİB-in Azərbaycandakı fəaliyyəti təkcə enerji deyil, həm də qeyri-neft sektorunun inkişafına dəstək vermək istiqamətində genişlənməyə başlayıb. Bu mərhələdə bank daha çox özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın (KOB) inkişafına yönəlmiş layihələrə diqqət ayırıb.

Qeyd edək ki, respublikamızın enerji sahəsində əldə etdiyi uğurlarda AYİB-in payı az deyil. Bank Dövlət Neft Şirkətinin bəzi investisiya layihələrinin maliyyələşdirilməsində, o cümlədən emal və nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində də mühüm rol oynayıb. Son illərdə bank bərpa olunan enerji sektoruna da diqqət yetirməyə başlayıb. 2020-ci illərdə AYİB Azərbaycanda günəş və külək enerjisi layihələrinin inkişafı üçün hüquqi-institusional mühitin yaradılmasına texniki yardım göstərib. Bu, Azərbaycanın “yaşıl” enerji keçidinə dəstək verən vacib addımlardandır.

AYİB-in strateji prioritetlərindən biri də özəl sektorun, xüsusilə kiçik və orta sahibkarlığın gücləndirilməsidir. Bank Azərbaycan üzrə bir sıra yerli bank və maliyyə institutları ilə əməkdaşlıq edərək KOB-ların maliyyə resurslarına çıxışını asanlaşdırıb. Kredit xətləri, texniki yardım və konsultasiya proqramları vasitəsilə bank yüzlərlə sahibkara öz bizneslərini böyütmək imkanı yaradıb.

Sözügedən maliyyə qurumu Azərbaycan maliyyə sektorunun inkişafı üçün texniki dəstək və sərmayələr ayırmaqla bu sahədə struktur islahatlarına mühüm töhfə verib. Bank qadın sahibkarlığının maliyyələşdirilməsinə xüsusi diqqət ayıraraq inklüziv maliyyə alətlərini təşviq edib.

Son illərdə bank Azərbaycanda nəqliyyat və logistika infrastrukturunun inkişafına da maraq göstərib. Bank regionlararası əlaqəliyin gücləndirilməsi və Orta Dəhliz kimi beynəlxalq təşəbbüslərin dəstəklənməsi baxımından mühüm layihələrdə iştirak edib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və dəmir yolu infrastrukturunun inkişafı kimi layihələr AYİB-in diqqətində saxlanılıb.

Beynəlxalq maliyyə qurumu Azərbaycanda “Yaşıl iqtisadiyyata keçid proqramı” çərçivəsində müxtəlif təşəbbüsləri dəstəkləyir. Bank bərpa olunan enerji, enerji səmərəliliyi və ətraf mühitin qorunmasına yönəlmiş layihələrə texniki və maliyyə dəstəyi verir. Eyni zamanda, 2023-cü ildə Bakıda keçirilən COP29-a hazırlıq kontekstində Azərbaycanın iqlim gündəminin həyata keçirilməsində tərəfdaş kimi çıxış edir.

Azərbaycan və AYİB arasında əməkdaşlığın gələcək mərhələsi, əsasən, iqtisadiyyatın şaxələndirilməsi, yaşıl enerji keçidi və rəqəmsal transformasiya istiqamətində davam edəcək. Bank, eyni zamanda, regionların inkişafı və aqrar sektorun dayanıqlı böyüməsinə dəstək göstərmək niyyətindədir. Bu, ölkənin uzunmüddətli milli prioritetlərinə uyğun gəlir.

AYİB ilə Azərbaycan arasında əməkdaşlıq qarşılıqlı etimada və inkişaf yönümlü təşəbbüslərə əsaslanır. Bu beynəlxalq maliyyə qurumunun respublikamızda həyata keçirdiyi layihələr təkcə iqtisadiyyatın konkret sahələrinə deyil, bütövlükdə ölkənin dayanıqlı və inklüziv inkişafına töhfə verməkdədir. Bu əməkdaşlıq gələcəkdə daha da dərinləşərək, Azərbaycan iqtisadiyyatının müasir çağırışlara uyğun inkişafına xidmət edəcək.

Sonda xatırladaq ki, AYİB tərəfindən aparılan tədqiqatlar Azərbaycanda ekoloji cəhəfdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğunu təsdiq edib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış “Advision” şirkəti ilə Azərbaycanın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlili də yekunlaşıb. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Maliyyə qurumunun ölkəmizin bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı fəaliyyətindən danışarkən bankın hazırda respublikamızın şərqində 240 meqavatt gücündə külək enerjisi stansiyasının tikintisini maliyyələşdirdiyi daha çox diqqət çəkir. Bu, külək enerjisi sahəsində ölkədə ilk təşəbbüs olmaqla Qafqazda bu cür ən böyük layihədir. Stansiya istismara verildikdən sonra ildə 893 qiqavatt-saatadək xalis elektrik enerjisinin hasil olunacağı gözlənilir. Ölkəmiz tərəfindən AYİB-in fəaliyyətində xüsusi yer tutan “Xəzər–Avropa İttifaqı Yaşıl Enerji Dəhlizi” layihəsi də yüksək dəyərləndirilir.

AYİB-in ölkəmizdəki fəaliyyəti təkcə “yaşıl” enerji layihələrinin maliyyələşdirilməsi ilə məhdudlaşmır. Ümumiyyətlə, Azərbaycan–AYİB əməkdaşlıq imkanları və bankın maliyyə dəstəyi ilə həyata keçirilən layihələr genişmiqyaslıdır. Maliyyə qurumunun indiyədək respublikamızda 188 layihəyə 3,6 milyard avrodan çox sərmayə qoyması, ümumi investisiyaların 13 faizinin özəl sektorun payına düşməsi də bunun bariz təsdiqidir. Bundan başqa, AYİB-in təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro investisiya qoyması və həmin vəsaitin 71 faizinin “yaşıl iqtisadiyyat”ın inkişafına, bərpaolunan enerji mənbələrinə yönəltməsi isə maliyyə qurumunun ölkəmizin inkişafına əhəmiyyətli töhfəsidir.

# BP Xəzərdə “Qarabağ” layihəsinə qoşulacaq

**BP və Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) "Qarabağ" layihəsi ilə bağlı şərtləri razılaşdırmalıdır. Bunu “BP-Azərbaycan”ın şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı jurnalistlərə açıqlamasında deyib.**




BP-nin “Qarabağ” layihəsinə qoşulmaq istədiyini bildirən şirkət rəsmisinin sözlərinə görə, layihə ilə əlaqəli çoxlu sayda texniki, kommersiya şərtlərinin hər biri razılaşdırmalıdır. Yalnız bundan sonra sənəd hazırlanmalıdır ki, BP onu imzalayaraq layihəyə qoşulsun.

Xatırladaq ki, 2024-cü il sentyabrın 20-də SOCAR ilə BP arasında “Qarabağ” neft yatağı və “Əşrəfi - Dan Ulduzu – Aypara” sahəsinə dair Anlaşma Memorandumu imzalanıb. Birinci blok Bakıdan 120 kilometr şərqdə, “Günəşli” yatağından 20-25 kilometr məsafədə, suyun 150-200 metr dərinliyində yerləşən “Qarabağ” neft yatağıdır. İkinci blok isə Bakıdan 90-110 kilometr şimal-şərqdə, suyun 80-180 metr dərinliklərində yerləşən “Əşrəfi – Dan Ulduzu – Aypara” sahəsidir.

SOCAR və “Equinor” 2018-ci il mayın 31-də Bakıda “Əşrəfi – Dan Ulduzu – Aypara” perspektiv strukturlar blokunun kəşfiyyatı və işlənməsi üzrə Hasilatın Pay Bölgüsü tipli müqavilə və “Qarabağ” yatağının işlənməsi üzrə Risk Xidməti Müqaviləsi imzalayıblar. Layihənin həyata keçirilməsi üçün SOCAR və “Equinor” paritet əsaslarla əməliyyat şirkəti yaradıblar. Lakin “Equinor” 2023-cü ilin dekabrında bu layihələrdəki 50 faizlik payını SOCAR-a satıb. Bununla da, 2024-cü il aprelin 24-də iki şirkət arasında əldə olunmuş razılışma öz qüvvəsini itirib.

Xatırladaq ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən, neft və qazla zəngin olduğu güman edilən “Qarabağ” yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair ilk saziş 1995-ci il noyabr ayının 10-da imzalanıb. Müqaviləyə əsasən buradan 25 il ərzində neft hasil ediləcəyi nəzərdə tutulub. 1996-cı il iyun ayının 4-də bu layihə ilə əlaqədar olaraq Xəzər Beynəlxalq Neft Kompaniyası yaradılıb. Həmin ilin avqustunda fəaliyyətə başlayan kompaniya müqavilə sahəsində qazılmış quyuları rentabelli hesab etməyərək əməliyyatı dayandırıb.

# Nəqliyyat dəhlizlərində daşımalar çoxalıb

**Beynəlxalq nəqliyyat dəhlizlərinin qovuşduğu Azərbaycan ərazisi ilə yükdaşımanın həcmi ildən-ilə artır. Bu da ölkəmizdə yaradılmış əlverişli nəqliyyat-logistika infrastrukturu ilə bağlıdır.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-mart aylarında Azərbaycandan keçən nəqliyyat dəhlizlərinin polad magistralları ilə 3 milyon 672,1 min ton, dəniz nəqliyyatı ilə 1 milyon 763,9 min ton, avtomobil nəqliyyatı ilə 2 milyon 553 min ton yük daşınıb.

Komitənin məlumatına görə, hesabat dövründə Şərq – Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 3 milyon 994,8 min ton, o cümlədən Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizi ilə 1 milyon 875,4 min ton, Şimal – Cənub nəqliyyat dəhlizi ilə 2 milyon 441,1 min ton, Şimal – Qərb nəqliyyat dəhlizi ilə 1 milyon 418,4 min ton, Cənub – Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 134,7 min ton təşkil edib. İlin birinci rübündə dəmir yolu nəqliyyatı ilə daşınmış yüklərin 46,3 faizi, avtomobil nəqliyyatı ilə daşınmış yüklərin 45,2 faizi, dəniz nəqliyyatı ilə daşınmış yüklərin isə 95,2 faizi tranzit yüklər olub.




# Türkiyənin gənc iş adamları ölkəmizdə



**Türkiyənin “Gənc MÜSİAD” təşkilatının Konya və Qaziantep şöbələrinə üzv olan gənc iş adamları Bakıya işgüzar səfərə gəliblər. Səfər çərçivəsində “Gənc MÜSİAD Azərbaycan”ın və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə “Bakı KOB evi”ndə Azərbaycan və Türkiyənin gənc iş adamlarının iştirakı ilə əməkdaşlıq görüşü keçirilib.**

Görüşdə KOBİA-nın İdarə Heyəti sədrinin birinci müavini Samir Hümbətov, “Gənc MÜSİAD Azərbaycan” təşkilatının sədri Akif Başoğlu, təşkilatın Konya şöbəsinin sədri Asım Elliki və Qaziantep şöbəsinin sədri Furkan Bozkurt çıxış edərək hər iki ölkənin iş adamları arasında əməkdaşlıq, ortaq biznes layihələri, startap ekosistemlərinin inkişafı, qarşılıqlı investisiya qoyuluşu imkanları, sahibkarlıq sahəsində təcrübə mübadiləsi və gələcəkdə birgə platformaların yaradılması ilə bağlı fikir və təkliflərini bölüşüblər. Eyni zamanda, görüşdə sahibkarlıq fəaliyyəti üzrə təcrübə mübadiləsi aparılıb, birgə layihələrin icrasına və investisiya imkanlarına dair təkliflər səsləndirilib.

Görüş çərçivəsində ölkəmizdə sahibkarlığa, xüsusən də kiçik və orta biznes strukturlarına göstərilən dəstək, eləcə də KOBİA-nın xidmətləri barədə təqdimat keçirilib. Bundan əlavə, Türkiyə iş adamlarının sualları cavablandırılıb, ölkəmizin biznes və investisiya mühiti barədə film nümayiş olunub.

Sonda tədbir iştirakçıları arasında “B2B” formatında ikitərəfli görüşlər təşkil olunub.

Səfər çərçivəsində qardaş ölkənin iş adamları sahibkarlara vahid məkanda xidmət mərkəzi olan “Bakı KOB evi”nin fəaliyyəti, burada göstərilən xidmətlərlə də tanış olublar.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azad Qarabağ “smart Qarabağ”a çevrilir

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, xatırladaq ki, Prezident İlham Əliyevin azad edilmiş ərazilərdə qurulacaq “smart-city”, “smart-village”, yəni “ağıllı” şəhər, “ağıllı” kənd konsepsiyası, ilk növbədə, dünyada baş verən qlobal çağırışlara cavab verir. Qarabağ regionu texnoloji investisiyalar üçün maraq mərkəzinə çevrilir, eyni zamanda, digər bölgələrimizdə “ağıllı” şəhər-kənd texnologiyalarının tətbiqi üçün təcrübə rolunu oynayır.

2021-ci ildə imzaladığı müvafiq sərəncamla işğaldan azad olunan ərazilərin bərpası üzrə konsepsiya hazırlanıb. Eyni zamanda, Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə “yaşıl enerji zonası”nın yaradılması üzrə Tədbirlər Planı” təsdiqlənib.

Ötən müddətdə bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsalının gerçəkləşdirilməsi, enerji səmərəliyi tədbirlərinin həyata keçirilməsi, elektrik nəqliyyat vasitələrindən istifadə üçün infrastrukturun qurulması, tikililərin damlarında bərpa olunan enerji qurğularının yerləşdirilməsi, xüsusən günəş panellərinin quraşdırılması, həmçinin küçələrin və yolların LED lampaları ilə işıqlandırılması kimi, “yaşıl” həllərin tətbiqi istiqamətində genişmiqyaslı işlər görülüb.

Dövlətimizin başçısı bununla bağlı çıxışlarının birində deyib: “Qarabağda və Şərqi Zəngəzurda son 3 ildə təxminən 300 meqavatlıq kiçik SES-lərin yaradılması layihələrini artıq həyata keçirmişik və iki ildən sonra bu, 500-ə çatacaq. Əlavə olaraq, külək və günəş energetikasını xarici investisiyalar hesabına fəal şəkildə inkişaf etdiririk. Dünya Bankının qiymətləndirməsinə görə, təkcə Xəzərdə külək enerjisi ehtiyatları 157 min meqavatdır. 2030-cu ilə qədər artıq imzalanmış müqavilələr və indi yerinə yetirilənlər bizə 6 min meqavat verəcək”.

Beləliklə, “ağıllı” şəhər texnologiyaları vətəndaşların sağlamlığını və rifahını yaxşılaşdırmaq gücünə sahib olmaqla bərabər iqtisadi inkişaf üçün yeni yollar təqdim edir. Bərpa olunan ərazilərdə bulud əsaslı texnologiyaların tətbiqi isə regionun bərpa prosesini sürətləndirir və texnoinvestorların bölgələrə marağını gücləndirir.

İnformasiya texnologiyalarının köməyi



ilə Qarabağda enerji paylanmasını yaxşılaşdırmaq, tullantıların yığımını asanlaşdırmaq, nəqliyyat sıxlığını azaltmaq və hətta hava keyfiyyətini yaxşılaşdırmaq olar. Məsələn, həmin ərazilərdə avtomatik olaraq tullantıların idarə olunması şirkətlərinə məlumat göndərən və lazım olduqda götürülməsini əvvəlcədən planlaşdırılan qrafikə malik “ağıllı” zibil qutularının qoyulması həmin regionu Azərbaycanın tullantısız, təkrar emal mərkəzinə çevirə bilər.

Mütəxəssislər bildirirlər ki, ölkə iqtisadiyyatı üçün əhəmiyyətli olan su ehtiyatlarına qənaət edilməsi layihəsi işğaldan azad olunmuş ərazilərdə yaradılan “ağıllı” şəhər konsepsiyası ilə gerçəkləşdiriləcək. “Ağıllı” suvarma sistemləri, su sızıntısı, su keyfiyyəti və istehlakının izlənilməsi kimi tətbiqetmələr bir gündə adam başına su istehlakını 25–80 litr arasında saxlayacaq.

Bulud əsaslı informasiya texnologiyalarının tətbiq olunması təkcə insan həyatını deyil, həmçinin ərazi idarəetməsini də asanlaşdıra bilər. Yerli dövlət idarəetmə orqanları, bələdiyyələr, özəl müəssisələr və vətəndaşlar öz həyat keyfiyyətini artıran daha yaxşı qərarlar vermək üçün məlumatları bu elektron tətbiqlər vasitəsilə real vaxtda qəbul, təhlil və idarə edə bilər.

Bu məqamda onu da qeyd edək ki, təkcə Qarabağda deyil, ümumiyyətlə, Azərbaycanda son illər sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub. “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 meqavatlıq, Biləsuvarda isə 445 meqavatlıq GES və Abşeron – Qaradağ rayonları ərazisində 240 meqavatlıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Son illərdə respublikada “yaşıl” enerjinin reallaşdırılması üçün normativ hüquqi bazanın formalaşdırılması da diqqət mərkəzində saxlanılıb. “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiqlənib. “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası” əsasında bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların səmərəli fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda, fəal istehlakçıların dəstəklənməsi və “yaşıl” sertifikatlarla bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Hazırda ölkəmizdə “yaşıl” enerjidən istifadənin genişləndirilməsi məqsədilə dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı, “yaşıl” enerjinin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, “yaşıl” hidrogen, elektromobillik və digər məsələlərlə bağlı layihələr hazırlanır. Ümumiyyətlə, “yaşıl” inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

Oxucular üçün maraqlı olsun deyə bir məqama da nəzər salmaq istərdik. Belə ki, bu gün bütün dünyada “ağıllı” şəhər konsepsiyasına xüsusi önəm verilir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Günay Quliyevanın sözlərinə görə, müasir dünyada insanların 54 faizi şəhərlərdə yaşayır və bu nisbətin 2050-ci ildə 66 faizə çatacağı gözlənilir. Əhalinin ümumi artımı ilə birlikdə urbanizasiyanın növbəti üç onillikdə şəhərlərə daha 2,5 milyard insan əlavə edəcəyi proqnozlaşdırılır.

Dünya liderləri tərəfindən ilk dəfə 2019-cu ildə Osakada keçirilən G20 Sammitində “ağıllı” şəhər anlayışı ciddi müzakirə edilib. Həmin müzakirədə belə məkanların (şəhərlərin) qurulması ilə bağlı fəaliyyət göstərən mövcud müəssisə-təşkilatları birləşdirəcək zəruri qlobal çərçivənin müəyyənləşməsi üçün ittifaqın yaradıldığı da elan edilib.

Ümumiyyətlə, “smart city” konsepsiyasını işğaldan azad olunan ərazilərdə reallığa çevirmək üçün, ilk növbədə, davamlı beynəlxalq təcrübələrini öyrənmək, növbəti mərhələdə tətbiq və təşviq etmək üçün əsasən informasiya – kommunikasiya texnologiyalarından geniş istifadə etmək zəruridir.

Ekspertlər bildirirlər ki, bütün istiqamətlərdə rəqəmsallaşmanı gerçəkləşdirmək hələ dəyər yaratmaq anlamına gəlmir. Bunun üçün, ilk növbədə, cəmiyyət bu prosesə hazır olmalıdır. Belə təqdirdə isə bir sıra fundamental istiqamətlərdə təkmilləşdirmə və layihələrin həyata keçirilməsi zəruridir. Bura infrastrukturun gücləndirməsi, hökümət buludunun inkişafı, 5G texnologiyasının genişləndirilməsi, rəqəmsal idarəetmə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, süni intellektin tətbiqi və bununla bağlı yarana biləcək risklərin qarşısının alınması üçün kibertəhlükəsizliyin inkişaf etdirilməsi, nəhayət, insan kapitalının inkişafı daxildir. Hazırda bütün qeyd edilən istiqamətlərdə müvafiq fəaliyyət həyata keçirilir.

Cəmiyyətin rəqəmsallaşması zərurətindən danışarkən bu yöndə konkret hədəflərin müəyyənləşdirildiyi də bildirilir. Məsələn, bu zaman rəqəmsal hökümət istiqamətində vətəndaş və biznes məmnuniyyətinin ən azı 85 faizə çatdırılması, rəqəmsal şəxsiyyət vəsiqəsi istifadəçilərinin sayını 1 milyona qaldırılması, 3 milyon vətəndaşın elektron imza ilə təmin edilməsinin reallaşdırılması, kağızsız ödənişlərin həcminin 70 faizə yüksəldilməsi planlaşdırılır.

# Xarici ticarət dövriyyəmiz 12 milyard dollara çatıb



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–mart aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 151 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 96 ölkəyə məhsul ixrac edilib, 142 ölkədən idxal olunub.**

Məlumatda bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla bu ilin yanvar–mart aylarında xarici ticarət dövriyyəsi 11 milyard 956,3 milyon dollar, o cümlədən ixracın dəyəri 6 milyard 293,3 milyon dollar, idxalın dəyəri 5 milyard 663 milyon dollar təşkil edib, nəticədə 630,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ötən ilin I rübü ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 20,1 faiz, real ifadədə 3,9 faiz artıb. İdxal real ifadədə 24,8 faiz artıb, ixrac isə 8,6 faiz azalıb. Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 90,2 faizi İtaliya, Rusiya, Türkiyə, Çin, Almaniya, Birləşmiş Krallıq, Çexiya, Avstraliya, Rumıniya, Xorvatiya, Gürcüstan, Portuqaliya, Meksika, Yunanıstan, İsveçrə, Bolqarıstan, İran, Kanada, ABŞ, İrlandiya, Braziliya, Qazaxıstan və Ukrayna ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 21,1 faizi Rusiyanın, 17,8 faizi Çinin, 10,5 faizi Türkiyənin, 5,1 faizi Avstraliyanın, 4,4 faizi Birləşmiş Krallığın, 4,3 faizi Almaniyanın, 3,4 faizi Meksikanın, 2,7 faizi İranın, 2,3 faizi Kanadanın, hər biri 2,1 faiz olmaqla Braziliya və ABŞ-ın payına düşüb.

İdxalda qiymətli metalların, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, nəqliyyat vasitələrinin, mineral məhsulların, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri üstünlük təşkil edib.

İdxal olunan malların 42,1 faizini avtomobil, 36,3 faizini hava, 11,4 faizini dəniz, 9,8 faizini dəmir yolu nəqliyyatı ilə gətirilib, 0,4 faizini isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil edib.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, kimya sənayesi məhsullarının, plastik kütlə və ondan hazırlanan məmulatların, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstünlük təşkil edib.

# Vergi ödəyicilərinin sayı artıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, 2025-ci il mayın 1-nə Azərbaycanda vergi ödəyicilərinin sayı 1 milyon 621 min 818 olub. Bu da ötən il mayın 1-i ilə müqayisədə 4,8 faiz çoxdur.**

Məlumata görə, vergi ödəyicilərinin 86,9 faizi fiziki şəxslər, 13,1 faizi hüquqi şəxslər və digər təşkilatlardır. Son 1 ildə fiziki şəxslərin sayı 4,3 faiz, hüquqi şəxslərin sayı isə 7,7 faiz artıb. Aprelin sonuna qeydiyyatda olan kommersiya qurumlarının sayı da bir il əvvələ nisbətən 8,4 faiz artaraq 195 min 263-ə çatıb. Dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 91,7 faizi məhdud məsuliyyətli cəmiyyət, 1,1 faizi səhmdar cəmiyyət, 1,1 faizi isə kooperativ və s. formalarda yaradılıb.

Təkcə bu ilin yanvar–aprel aylarında 4 min 995 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib ki, onların da 89,5 faizi yerli investisiyalı, 10,5 faizi xarici




investisiyalıdır. Kommersiya qurumlarının 86,3 faizi elektron qaydada qeydiyyata alınıb. Hesabat dövründə qeydiyyatdan keçmiş yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərinin e-qeydiyyatının xüsusi çəkisi 97,1 faiz təşkil edib.

# Neft şirkətimiz İsveçrədə fəaliyyətini genişləndirir

**Azərbaycan Dövlət Neft Şirkəti İsveçrədə elektrikli yük avtomobilləri üçün ilk sürətli yükləmə stansiyasını istifadəyə verib. Bu, qurumun İsveçrədəki törəməsi olan “SOCAR Energy Switzerland” şirkətinin mayın 15-də “A1” yolu boyunca Kölliken-Nord istirahət zonasındakı elektrikli yük avtomobilləri üçün istismara buraxdığı ilk sürətli yükləmə stansiyasıdır.**




Şirkətin bununla bağlı açıqlamasında bildirilir ki, yeni infrastruktur elektrikləşdirilmiş ağır yük daşıyan nəqliyyat vasitələrinin doldurulması üçün nəzərdə tutulub. 400 kilovata qədər gücü olan stansiya hətta elektrikli ağır yük avtomobilləri üçün yükləmə müddətini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir. Bu isə logistika şirkətləri üçün xüsusilə vacibdir.

Eyni zamanda İsveçrə KİV-ləri xəbər verir ki, SOCAR 2026-cı ilin sonuna qədər ölkədə minik və yük elektromobilləri üçün təxminən 100 yükləmə məntəqəsi istifadəyə verməyi planlaşdırır.

Məlum olduğu kimi, Azərbaycan Dövlət Neft Şirkəti İsveçrədə “SOCAR” brendi altında yanacaqdoldurma stansiyaları şəbəkəsi açaraq neft məhsullarının pərakəndə satışı sahəsində fəaliyyət göstərir. Hazırda bu şəbəkə, təxminən, 200 yanacaqdoldurma stansiyasından ibarətdir. Bundan əlavə, Sürixdə “SOCAR Trading” şirkətinin baş ofisi yerləşir.

# Xəzəryanı ölkələrlə aqrar elm üzrə əməkdaşlıq

**18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə “Dövlət-özəl tərəfdaşlığı çərçivəsində Aqronomların I Forumu” keçirilib. Forumun əsas məqsədi dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, aqronomların bilik və bacarıqlarının inkişaf etdirilməsi, innovativ texnologiyaların tətbiqi və bilik mübadiləsinin təşviq olunmasıdır.**



Forumda dövlət və özəl sektorun nümayəndələri, aqronomlar, tədqiqatçılar, fermerlər və aqrar sahənin digər iştirakçıları bir araya gələrək aqronomiyanın mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparıblar. Toplantıda xüsusi olaraq özəl müəssisələrdə çalışan aqronomların bilik və bacarıqlarının şəffaf və obyektiv meyarlarla qiymətləndirilməsi və sertifikatlaşdırılması məsələlərinə toxunulub. Qeyd olunub ki, bu yanaşma peşəkarların əmək bazarında tanınmasına, xidmət keyfiyyətinin yüksəldilməsinə və sahəyə olan ictimai inamın möhkəmləndirilməsinə xidmət edir.

Tədbirin sonunda iştirakçılar aqrar sahənin inkişafına töhfə vermək məqsədilə bu cür fikir mübadiləsi platformalarının əhəmiyyətinə toxunub, bilik və təcrübə mübadiləsinin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Forum çərçivəsində Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ilə “CARCAS” Xəzəryanı ölkələrin Aqrar Tədqiqatlar Mərkəzi arasında memorandum imzalanıb.

Tərəflər meyvəçilik sahəsində tədris və təlim mərkəzlərinin yaradılması, elmi tədqiqatlar, innovasiyaların tətbiqi, birgə əkin nümayiş sahələrinin salınması, aqroinnovasiya platformalarını təşkili istiqamətində əməkdaşlıq edəcəklər. Memoranduma əsasən, aqrar sahədə ixtisaslı kadrlar hazırlanması, birgə tədris modulları və sertifikat proqramlarının yaradılması, gənc mütəxəssislərin təcrübi biliklərinin artırılması istiqamətində əməkdaşlığın genişləndirilməsi planlaşdırılır.

# İşığımız daha da gurlaşıb

**Bu ilin yanvar – aprel aylarında Azərbaycanda 8 milyard 789,8 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu da əvbəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çoxdur. Bu barədə məlumat Dövlət Statistika Komitəsinin aylıq hesabatında yer alıb.**

Komitənin məlumatına görə, jesabat dövründə ölkədə istehsal olunan elektrik enerjisinin 8 milyard 485,4 milyon kilovat-saatı əmtəəlik məhsulun payına düşüb. Bu isə illik müqayisə ilə 1,5 faiz artım deməkdir. Ölkədə istehsal olunan elektrik enerjisinin 7 milyard 287 milyon kilovat-saatı istilik elektrik stansiyalarının payına düşüb ki, bu da 2024-cü ilin yanvar–aprel göstəricisindən 2,1 faiz azdır.

Cari ilin ilk dörd ayı ərzində Azərbaycanda istehsal olunan elektrik enerjisinin qalan hissəsi, yəni 1 milyard 63,2 milyon kilovat-saatı (35,9 faiz artım) su elektrik stansiyalarından, 129,6 milyon kilovat-saatı (10,7 faiz artım) günəş elektrik stansiyalarının payına düşüb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

İzimiz, tariximiz...

III yazı

## Səfəvi – Böyük Moğol münasibətləri

Səfəvi – Böyük Moğol (Baburilər Dövləti) münasibətləri XVI əsrin əvvəlindən başlayaraq XVII əsrə qədər davam edib, əməkdaşlıq daha çox sülh və dostluq əlaqələrinə əsaslanıb. O dövrdə Böyük Moğol imperatoru Babur və Səfəvilər dövlətinin banisi və ilk şahı Şah İsmayıl ortaq düşmənlərinə qarşı birgə mübarizə aparıblar. Məhz Səfəvilərin də köməyi ilə 1512–1513-cü illərdə Buxara və Səmərqənd geri qaytarılıb.

Səfəvilər dövlətindən Böyük Moğol İmperiyasına gedən çoxlu Azərbaycan türkü mühüm vəzifələr tutub. Moğol hökmdarları, vəzirlər, şahzadələr, orduda vəzifə tutan hərbçilər, əyanlar həm də Səfəvi qızları ilə evlənməyə üstünlük verib. Bunun siyasi mənası da vardı, belə ki, belə qohumluq əlaqələri Moğollarla Səfəviləri daha da yaxınlaşdırırdı. Moğol İmperiyasının himayə etdiyi şairlər, rəssamlar, alimlər arasında Azərbaycan türkləri də az olmayıb. Qəndəharın böyük ticarət əhəmiyyəti olduğundan şəhər zaman-zaman Səfəvilər və Moğollar tərəfindən əldən-ələ keçib. Hər il Hindistandan təxminən 14 min dəvə bu şəhərdən keçərək Səfəvi dövlətinə müxtəlif mallar aparıb və dəvə karvanlarının bu ərazidən keçməsi hər il Qəndəhara 40 min tümən gəlir gətirib. Bu səbəbdən Qəndəhar şəhərinə maraq güclü olub.



# Baburi şahzadəsi Xürrəm sultan Şahcahanın Səfəvi şahzadəsi Qəndəhari bəyimlə tale ortaqlığı



Qəndəhari bəyimin türbəsi



Qəndəhari bəyim

**Səfəvi şahzadəsi Qəndəhari bəyim** (**Qəndəhari Mahal** kimi də tanınıb)1593-cu ildə o zaman Səfəvi İmperiyasına tabe olan Qəndəhar şəhərinin hakimi Sultan Müzəffər Hüseyn mirzə Səfəvinin ailəsində anadan olub. Sultan müzəffər Hüseyn mirzə Səfəvi sülaləsindən ilk şah olan I İsmayılın nəvəsi, Bəhram mirzənin oğlu idi. Qəndəhari bəyim həm də Şah I Abbasın və Şah II Abbasın qohumu, onlarla eyni şahlıq sülaləsinə mənsub idi.

Qəndəhari bəyim Böyük Moğol İmperiyasında şahzadə Şahabiddin Məhəmməd Xürrəmin (imperator olduqdan sonra Sultan Şahcahanın) birinci arvadı və onun ilk övladı olan Şahzadə Parhez Banu bəyimin anası idi.

O dövrdə Qəndəhari bəyimin atası Sultan Müzəffər Hüseyn mirzənin hakim olduğu Qəndəhara göz dikənlər çox idi. Hücumların qarşısını almaq üçün kifayət qədər gücü olmayan Sultan Müzəffər Hüseyn mirzə Moğollara təslim olmaq qərarına gəlir. O yandan da uzun müddət Qəndəharı ələ keçirmək üçün fürsət gözləyən Moğol hökmdarı Əkbər şah Banqaş hakimi Şah bəy Xan Arqunu Qəndəharın üzərinə göndərir. Müzəffər mirzə müqavimət göstərsə də, hiylə işlətsə də, Şah bəy Xan Arqunun sərkərdə kimi ağıllı strateji addımlar atması sayəsində Sultan Müzəffər Hüseyn mirzə şəhəri təhvil verməyə məcbur olur. 1595-ci ildə Sultan Müzəffər Hüseyn mirzə Qəndəhardan çıxarkən minə yaxın Qızılbaş əsgərini, qardaşları Bəhram mirzə, Heydər mirzə, Əlqas Mirzə və Təhmasib mirzəni və qızı Qəndəhari bəyimi özü ilə bərabər Hindistana aparır.

Böyük Moğol imperatoru Əkbər şah Sultan Müzəffər Hüseyn mirzəni hörmətlə qəbul edir, ona fərzənd (oğul) titulu verir və Moğolların beş min nəfərlik döyüşçüsünün komandanı təyin edir, həmçinin Qəndəhardan daha zəngin olan Sambhalı ona cagir olaraq bağışlayır.

Müzəffər mirzənin gənc qardaşı Rüstəm mirzə də Əkbər şahın hakimiyyəti altındakı torpaqlara köçür. O, Cahangir şahın hakimiyyəti dövründə daha böyük vəzifələr tutur.

Sultan Müzəffər Hüseyn mirzə Hindistandakı yeni həyata öyrəşə bilmir, Səfəvi imperiyasına, bəzən də Məkkəyə getmək istəyində olur. Kədər, məyusluq, aldığı fiziki və mənəvi zərbələr qalib gəlir və son arzularını həyata keçirə bilməyən Sultan Müzəffər Hüseyn mirzə 1603-cü ildə vəfat edir.

Türbəsi Dehlidəki Hümayun türbəsinin şimalında, hazırda "Bharat Scouts & Guides Delhi Jamboree" bölgəsi olan bağ kompleksindəki xarabalıqlar arasındadır.

## Şahzadə Xürrəmin Qəndəhari bəyimlə nigahı

1594-cü ildə Qəndəharın Moğollar tərəfindən alınması ilə bağlı Səfəvilərlə Moğollar arasında münasibətlər düşmənçilik səviyyəsinə çatmasa da, qarşıdurma yaranmışdı. O dövrdə Aqra (Moğollar) və İsfahan (Səfəvilər) arasında düşmənçilik elan edilməsi heç bir tərəfin mənafeyinə uyğun deyildi. Qarşıdurma çox ehtimal ki, I Şah Abbası Dekandakı şiə müttəfiq dövlətlərə silah, döyüşçü və pul göndərməyə təhrik edə bilərdi ki, bu da Moğolların maraq dairəsində deyildi. Nigah diplomatiyası yolu ilə münasibətləri düzəltmək, Moğolların hakim sülaləsi ilə Səfəvilərin hakim sülaləsi arasında qohumluq əlaqələrini daha da möhkəmləndirmək, öz qanlarını Səfəvilərin qanına qatmağa çox can atırdılar. Qəndəharın tutulmasından sonra isə bu məsələ daha da aktuallaşır və siyasi baxımdan məqsədyönlü bir evlilik bu incikliyin qarşısını ala bilərdi. Bu zaman Cahangirin böyük oğlu Xosrov mirzə zindanda, Pərviz cənub cəbhəsində olduğu üçün üçüncü oğlu Şahzadə Məhəmməd Xürrəmin üzərində dayanmalı olurlar.

Şahzadə Şahabiddin Məhəmməd Xürrəm atası Cahangirin təklifini rədd edə bilməzdi, bu, məqsədli bir evlilik, Moğollarla Səfəvilər arasında incikliyi aradan götürmək üçün strateji və diplomatik bir addım idi. O biri yandan isə Şahzadə Xürrəm Səfəvi Dövlətindən bu torpaqlara gələn, Sultan Cahangirin vəziri Əbülhəsən Asəf xanın qızı Ərcümənd Banu bəyimlə uzun illər nişanlı idi. Bununla belə on səkkiz yaşlı Şahzadə Xürrəm dövlətlərarası münasibətləri düzəltmək, əlaqələri nizamlamaq üçün gənc Səfəvi qızı Qəndəhari bəyimlə evlənməyə razı olur.

## Şahzadə Xürrəm və Qəndəhari bəyimin toyu

Moğol sarayının salnaməçisi və bioqrafı nişan mərasimi haqda ətraflı məlumat verir. Sultan Cahangir 1609-cu il dekabrın 12-də Qəndəhari bəyimin atası Sultan Müzəffər Hüseyn mirzə Səfəvinin evinə başlıq kimi əlli min rupi göndərir. Sultan Cahangir öz tüzüklərində yazır: "Əvvəllər Qəndəhar hakimi olmuş Sultan Hüseyn mirzənin oğlu Müzəffər Hüseyn mirzənin qızını öz oğlum Şahzadə Xürrəmə nişanladım. Bunun üzərinə nigah məclisi quruldu, mən Baba Xürrəmin evinə getdim və gecəni orada keçirdim".

Qəndəhari bəyim və Şahzadə Xürrəmin toyu 1610-cu il noyabrın 8-də Aqrada olur. Şahzadə Xürrəmin rəsmi tərcümeyi-halını yazan Məhəmməd Əmin Qəzvini toy mərasimini belə təsvir edib: "Şənlik məclisi ənənəvi olaraq hakim imperatorun dul anasının istifadəsinə verilən, Dövlət evinə bitişik Aqra qalasının qalın divarları arasında yerləşən, gözəl bəzədilmiş sarayda təşkil edilmişdi. Münəccimlər münasib bir saatda nigahın kəsilməsini təmin etdilər".

## Şahzadə Parhez Banu bəyim

1611-ci il avqustun 21-də Aqrada Şahzadə Xürrəmin və Qəndəhari bəyimin qız övladı dünyaya gəlib, bu, Şahzadə Xürrəmin böyük, Qəndəhari bəyimin yeganə övladı idi. Körpənin ata babası Sultan Cahangir körpəyə Parhez Banu bəyim adını verib ki, bu da "qənaətkar şahzadə" deməkdir.

Parhez Banu bəyimin atası Sultan Şahcahan qızını çox sevirdi. Buna baxmayaraq, Böyük Moğol İmperiyasının imperatoru Cahangir Şahın vəziri, Səfəvilərdən olan Əbülhəsən Asəf xanın qızı, beş il nişanlı qaldığı Ərcümənd Banu Bəyimlə (Mümtaz Mahal) evlənməyi qərara alır. (Bu haqda növbəti yazıda söhbət açılacaq – Q.K.)

Bu evlilik Qəndəhari bəyimə zərbə olur, özünə qapanır, fikrini və kədərini öz adına "Qəndəhari bağı" saldırmaqla, bağın qərb hissəsində bir minarəli, üç tağlı məscid tikdirməklə dağıdır, gənckən qocalır, qızı Parhez Banu bəyimlə belə az maraqlanır. Qəndəhari bəyim gününü həmin bağda və məsciddə ibadət etməklə keçirir, təxminən 1628-ci ildə 35 yaşında Aqrada dünyasını dəyişir, sağlığında tikdirdiyi "Qəndəhari bağı"nda dəfn olunur, hansı səbəbdən ölməsi haqqında mənbələrdə müfəssəl məlumat verilmir.

Parhez Banu bəyimi Moğol imperatoru Əkbər şahın ilk arvadı Rüqəyya Sultan bəyim böyüdüb. Onu da demək yerinə düşər ki, Sultan Şahcahanı da 13 yaşına qədər Rüqəyya Sultan bəyim böyütmüşdü.

Şahcahan ölüm yatağında olarkən Mümtaz Mahaldan olan böyük qızı Cahanaradan Parhez Banu bəyimə göz-qulaq olmağı tapşırıb.

Parhez Banu bəyim 1675-ci il oktyabrın 19-da Dehlidə 64 yaşında vəfat edib, o da anası kimi sağlığında tikdirdiyi bağda dəfn olunub.

İndiki zamanda "Qəndəhari bağı" adlanan məkandan əsər-əlamət qalmayıb, kompleksdə müasir binaların tikintisi ilə bağlı kərpic karxanası kimi istifadə edilib, o məkanda Qəndəhari bəyimin məzarı artıq yoxdur. "Qəndəhari Bağı"nın bir qapısı və bir neçə künc tikilisi günümüzə qədər salamat qalıb. Qəndəhari bəyimin məzarı üzərindəki türbə isə 1707-ci ildə Sultan Övrəngzibin (Aləmgir) ölümündən sonra baş verən anarxiya dövründə dağıdılıb.

1628-ci ildən sonra Şahabiddin Məhəmməd Xürrəm Böyük Moğol imperatoru olduqdan sonra Şahcahan adını alır və onun hakimiyyəti 1658-ci ilədək davam edir.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Ərzincanda beynəlxalq aşıq çal-çağırı

**Bugünlərdə qardaş Türkiyənin Ərzincan şəhərində VI Türk Dünyası Aşıq Sənəti Məclisi keçirilib. İkigünlük toplantıda Altaydan tutmuş İranın Qaşqay elinə, Borçalıdan keçib Makedoniyadək uzanan türk dövlətləri və toplumlarının ozan-aşıq-baxşı sənətinin ünlü təmsilçiləri və xalq söz-musiqi yaradıcılığı biliciləri içtirak ediblər.**




Ərzincan Binəli Yıldırım Universitetinin təşkilatçılığı, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin, Ərzincan Bələdiyyəsinin dəstəyi ilə təşkil edilmiş şeir-musiqi təntənələrində Azərbaycanın aşıq qrupu, folklor araşdırmaçıları və bu mövzuda yazıb-yaradan jurnalistlər də fəal iştirak ediblər.



İlk gün şəhərin mərkəzi meydanında keçirilən böyük konsertdə türkdilli xalqların milli yaddaşının və mədəni dəyərlərinin təməlində dayanan ozan sənətinin çağdaş davamçıları rəngarəng ifalarla çıxış ediblər. Ərzincanlılar sazın, qara zurnanın, balabanın, dombranın, dütarın, nağaranın, kərənayın müşayiəti ilə səslənən aşıq havalarını coşğu ilə qarşılayıblar.

Ərzincana sənət şöhrəti qazandırmış, milli ozan yaradıcılığına populyarlıq qazandırmış XX əsr aşığı Əli Əkbər Çiçəyin xatirəsinə həst edilmiş beynəlxalq məclisin təntənəli açılış mərasimində təkilatçı qurumların təmsilçiləri və mütəxəssislər bundan əvvəlki 5 toplantının Türk dünyasında ozan-aşıq sənətinin öyrənilməsi, qorunması və inkişaf etdirilməsinə önəmli təsir göstərdiyini söyləyiblər. Onlar 6-cı məclisin bu gərəkli mənəvi missiyanı davam etdirməkdə növbəti uğurlu addım olduğunu vurğulayıblar.

Toplantı çərçivəsində təşkil edilən dəyirmi masa müzakirəsində aşıq sənəti araşdırıcıları türk xalqlarının milli ruhunu yaşadan bu xalq yaradıcılığının təbii qaynaqlarının qorunub saxlanması, yeni nəsillərə ötürülməsi və elmi əsasla öyrənilməsi ilə bağlı geniş diskussiya aparıblar. Müzakirələrdə səslənən təklif və mülahizələri təşkilatçılar qeydə alaraq gələcək fəaliyyət üçün əsas götürüblər.

Axşam Binəli Yıldırım Universitetinin böyük salonunda toplantıya yekun vurulub. Məclis ali məktəb kollektivi və şəhər ictimaiyyəti üçün təşkil edilmiş geniş aşıq konsetrt ilə başa çatıb.

Qonaqlar toplantı günlərində Türkiyədə ozan sənətinin qədim məskəni olan Ərzincanın mədəni dəyərləri, tarix və təbiət abidələri ilə tanış olublar.

***Tahir AYDINOĞLU***
***XQ***

# Xətaidə poeziya məclisi

**Xətai Rayon Mərkəzi Kitabxanasında Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "İlin ziyalısı" fəxri adına layiq gördüyü və "Avropa Şərəf Ordeni" ilə təltif edilən şair-publisist Rafiq Ələkbərlə görüş keçirilib.**




Poeziya məclisində tənqidçi Hikmət Məlikzadə kitablarına redaktorluq etdiyi Rafiq Ələkbərin həyat və yaradıcılığı barədə ətraflı məlumat verib. İxtisasca hüquqşünas olan Rafiq Ələkbərin kitablarının bədii-fəlsəfi dəyərini açıqlayıb.

Şairin qələm dostları – "Yeni təfəkkür" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, AYB üzvü Şəmsiyyə Kərimova, "Xalq qəzeti"nin məsul katibi, Əməkdar jurnalist İlqar Rüstəmov, şair Əli Nəcəfxanlı, "Söz" qəzetinin baş redaktoru Arif Musa və başqaları ürək sözlərini söyləyiblər. Rafiq Ələkbər yaradıcılıq planları barədə iştirakçılarına məlumat verib, onların suallarını cavablandırıb və yeni şeirlərini oxuyub.

***XQ***

*Sənətkar qonaqlarımız*

# Heydər Əliyev Mərkəzində braziliyalı rəssamın sərgisi



**Mayın 16-da Heydər Əliyev Mərkəzində tanınmış braziliyalı rəssam-heykəltaraş Luiz de Souzanın sərgisinin açılışı olub. "Əbədiyyətin ifadəsi" sərgisində müəllifin rəngkarlıq, heykəltaraşlıq sahəsində əsərləri təqdim edilir. Burada rəssamın məhz Azərbaycanda ilk dəfə nümayiş olunan əsərləri də yer alıb.**



Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, Luiz de Souzanın əsərləri dünyanın müxtəlif sərgilərində nümayiş olunur. Bakıda isə məhz Heydər Əliyev Mərkəzindəki sərgi üçün təqdim olunan bir sıra yeni əsərlər yer alır.

Braziliya Federativ Respublikasının Azərbaycandakı səfiri Manuel Adalberto Karlos Monteneqro Lopes da Kruz Heydər Əliyev Mərkəzində irəli sürülən bu təşəbbüsə görə minnətdarlığını bildirib. "Biz Luiz de Souzanın yaradıcılıq fəaliyyətinə baxsaq, görərik ki, çalarları, müxtəlif fiqurları, perspektivləri və digər vasitələri nə dərəcədə peşəkarcasına bir araya gətirir", – deyə o vurğulayıb.

Braziliyalı rəssam Luiz De Souza özünəməxsus gözəlliyi, zəngin tarixi olan Azərbaycanın incəsənətə nə dərəcədə böyük dəyər verdiyinin şahidi olduğunu bildirib. O, ərsəyə gətirdiyi əsərləri barədə danışıb: "Həyatımda mənə ən böyük təsir göstərən məsələ zamandır. Zamanla yaratdığım əsərlər heç də mənə asan gəlməyib. Bəzi hallarda əsərləri yaradanda çox sürətlə edirəm, digər tərəfdən o qədər də ləng. Bəzi hallarda isə özüm-özümlə mübarizəyə çıxıram. Həmçinin bu gün Heydər Əliyev Mərkəzində doğum günümdə sərginin açılışının olması mənə həddsiz bir sevinc gətirdi", – deyə qeyd edib.

Ekspozisiyadakı sənət nümunələrinin leytmotivi Luiz de Souzanın zamanla münasibətindən qaynaqlanır. Müəllif hesab edir ki, rəsm çəkərkən zaman fərqli şəkildə keçir və bu halda zaman riyazi hesabla deyil, xüsusi ölçü ilə davam edir.

Luiz de Souza əmindir ki, bu gün istənilən işin tez bir zamanda tamamlanmasına olan təlaş qədim texnikaların tətbiqinə tələb olunan müddətlə uyğun gəlmir. Halbuki məhz daha uzun zaman tələb edən rəngkarlıq və heykəltaraşlıq üsulları əsərlərə orijinallıq və dəyər qazandırır.

Zaman mövzusu Luis de Souzanın ilk dəfə məhz Heydər Əliyev Mərkəzində sərgilənən "Gerisayım" adlı tablosunun da əsas mövzusunu təşkil edir. Rəssamın fon kimi istifadə etdiyi dünyada moped sürən şəxs saat əqrəbinin əksinə hərəkət edir. Sanki zamanı geri qaytararaq keçdiyi yolu yenidən gedirmiş kimi. Bu əsər gerisayımı simvolizə edərək insanın Yer kürəsinə təsirini vurğulayır. Rəssam bununla bəşəriyyətin fəaliyyətinin yeni bir kütləvi məhv prosesinin başlanmasını sürətləndirdiyini vurğulayır.

Luiz de Souzanın yeni əsərləri sırasında geriyə qayıtmaq və keçmişi fərqli şəkildə yaşamaq ideyasını əks etdirən "Zaman səyahətçiləri", zamanın bizim cəmiyyətimizlə müqayisədə nə qədər böyük olduğunu simvolizə edən "Zamanda qərq olan" adlı tabloları da yer alıb.

Braziliyalı rəssamın istedadı və sənətə marağı 3 yaşında ikən rəsm çəkməyə və heykəltaraşlıqla məşğul olmağa başladığı vaxt ortaya çıxıb.

Əsərləri müxtəlif ölkələrdə nümayiş etdirilən və şəxsi kolleksiyalarda saxlanılan braziliyalı rəssamın əl işlərində Yan Vermeerin rəng və işıqdan zərif istifadə üsulunu, Salvador Dalinin sürrealizmini və Mikelancelo Karavacconun dramatik işıq və kölgə kontrastının təsirlərini tapmaq olar.

"Əbədiyyətin ifadəsi" sərgisi ilə Heydər Əliyev Mərkəzində 2026-cı il aprelin 1-dək tanış olmaq mümkündür.

*Maraq dünyamız*

**Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı, "Nazar Holdinq" və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə avtomobil həvəskarları üçün maraqlı layihə təqdim olunub. Mayın 17-də paytaxtın Əziz Əliyev küçəsindən başlayaraq Qoşa Qala qapısının qarşısınadək "Sürətin evolyusiyası" layihəsi çərçivəsində klassik avtomobillərin sərgisi keçirilib.**

# Klassik avtomobillərin Bakı yürüşü



Ziyarətçilər 1985-ci ilədək istehsal olunan avtomobilləri izləməklə həm də ötən illərin ab-havasına qayıdıblar. Burada müxtəlif illərə və ölkələrə aid klassik avtomobillərlə yaxından tanışlıq, nostalji dolu anlar yaşamaq imkanı olub.

Sərgi səhər saatlarından axşam 19-dək ziyarətçiləri, retro avtomobil həvəskarlarını bir araya toplayıb. Sərgidə Azərbaycan Avtomobil Federasiyasının klassik avtomobil kolleksiyası ilə yanaşı, tədbirə qeydiyyatdan keçmiş avtomobil sahibləri də öz nəqliyyat vasitələri ilə təmsil olunub.

Bununla da AAF klassik avtomobillərlə bağlı tədbirlər mövsümünü açmış olub. Avqust ayının sonunda isə paytaxtda klassik avtomobillərin yürüşünü təşkil olunacaq.

Qeyd edək ki, mayın 18-də "Sürətin evolyusiyası" sürət avtomobillərinin və "Supercar"ların nümayişi ilə davam edəcək. Bununla da iki gün ərzində klassik avtomobillərdən sürət avtomobillərinədək sürətin evolyusiyasını izləmək mümkün olacaq.





*Beynəlxalq həyat*

# Tramp İsrail və Suriyanı dialoqa yönləndirib

**ABŞ Prezidenti Donald Tramp ilə Suriyanın keçid dövrü lideri Əhməd əl-Şəraa arasında baş tutan təkbətək görüşdən və 1979-cu ildən bəri Dəməşqə qarşı tətbiq olunan sanksiyaların tamamilə aradan qaldırılması qərarından sonra İsrail də Dəməşq ilə bağlı mövqeyini yumşaltmaq qərarına gəlib. İsrail mətbuatının yazdığına görə, Ərəb Respublikasında baş verən hakimiyyət dəyişikliyindən sonra Baş nazir Benyamin Netanyahunun hökuməti qonşu ölkə ilə "İbrahim razılaşmaları" çərçivəsində münasibətlər qurmağa hazırdır.**



Ynet portalının mənbələrinin bildirdiyinə görə, İsrail rəhbərliyi Suriyaya münasibətdə kursunu dəyişib. Mənbələrin sözlərinə əsasən, yəhudi dövləti ABŞ Prezidenti Donald Trampın Dəməşqə qarşı sanksiyaları ilkin şərt olmadan ləğv etmək və əlaqələr qurmaq təşəbbüsünü müsbət dəyərləndirib. İsrailin baxışına görə, bu addım Suriyanı xarici güclərin təsirindən qorumaq üçün fürsət yaradır. Ynet-in məlumatına əsasən, Netanyahu hökuməti özü də Dəməşqlə münasibətləri ABŞ-ın himayəsi altında ərəb-yəhudi məsələsini "İbrahim razılaşmaları" çərçivəsində normallaşdırmağa hazırdır.

Mənbələr vurğulayıb ki, ərəb mediasında yayılan məlumatlara əsasən, 2024-cü il dekabrın 8-də hakimiyyətə gələn yeni Suriya hökumətinə qarşı ABŞ sanksiyalarının ləğv edilməsinə İsrail qarşı çıxmayıb, lakin ehtiyatlı mövqe sərgiləyib. "ABŞ-ın öz alternativlərini qiymətləndirərək rasional qərara gəlməsi üçün 6 ay vaxt lazım olub və İsrail bu prosesə heç zaman mane olmayıb," – deyə Ynet-in mənbələrindən biri qeyd edib. Onun sözlərinə görə, İsrail Suriyada sabitliyin olmasında maraqlıdır və Əl-Şəraa rəhbərliyi ilə münasibətlərin istiləşməsi, İsrail Müdafiə Qüvvələrinin (İDF) Bəşər Əsədin devrilməsindən sonra Suriyanın cənubunda tutduğu mövqeləri tərk etməsi üçün əsas yarada bilər.

İsrailin Suriya ilə bağlı mövqeyini dəyişməsi xəbəri ABŞ Prezidenti Donald Trampın mayın 14-də Səudiyyə Ərəbistanında Suriya lideri ilə keçirdiyi tarixi görüşdən sonra yayılıb. Danışıqlardan sonra Ağ ev rəhbəri bəyan edib ki, Vaşinqton Dəməşqlə münasibətləri normallaşdırmağa və 1979-cu ildən qüvvədə olan sanksiyaları ləğv etməyə hazırdır. Trampın sözlərinə görə, yeni Suriya rəhbərliyi "ölkədə sabitliyi təmin etməyə və sülhü qorumağa qadirdir".

Ynet-in məlumatına əsasən, bu ay Suriya və İsrail münasibətlərin normallaşdırılmasına dair məxfi danışıqların bir raundunu da keçiriblər. Yəhudi dövləti adından bu məsləhətləşmələrdə İsrail Müdafiə Qüvvələrinin Əməliyyatlar idarəsinin rəhbəri general-mayor Oded Basiuk iştirak edib. Danışıqların aparılması barədə ilk məlumatlar mayın 7-də "Reuters" agentliyinin BƏƏ-nin vasitəçiliyi ilə etimadın qurulmasına yönəlmiş dolayı təmasların başlandığını bildirməsi xəbəri ilə yayılıb.

Siyasi müşahidəçilərin sözlərinə görə, bu yanaşma İsrailin Suriya siyasətində əhəmiyyətli dönüş nöqtəsi hesab oluna bilər. Təbii ki, münasibətlərin yaxın zamanda tam şəkildə normallaşacağını söyləmək çətindir. Lakin istənilən halda İsrailin mövqeyində baş verən dəyişiklik 2 ölkə arasında sərhəd təhlükəsizliyinin təmin olunmasına və Suriyada postmüharibə dövrünün bərpasına müsbət təsir göstərə bilər.

***SE LAY***
***XQ***

# Rumıniya prezidenti kim olacaq?

## *Mübarizə liberal və millətçi namizədlər arasında gedir*

**Bu gün Rumıniyada prezident seçkilərinin ikinci, həlledici turu keçirilir. Qeyd edək ki, mayın 4-də seçkilərin birinci turunda sağ mühafizəkar siyasətçi, "Rumınların Birləşməsi Alyansı" partiyasının rəhbəri Ceorce Simion 41 faizlə 1-ci yeri, paytaxt Buxarestin meri, liberal siyasi baxışları ilə seçilən Nikuşor Dan isə 21 faiz səslə 2-ci yeri tutublar. Son rəy sorğularına görə, hər iki namizədin seçkilərdə qalib gəlmək şansı var.**

Xatırladaq ki, iki həftə əvvəl səsvermə zamanı hakim koalisiyanın nümayəndəsi Krin Antonesku I turda 20,1 faiz səslə 3-cü yerlə kifayətlənməli olub. Bu səbəbdən Rumıniyanın Baş naziri, "Sosial-Demokrat Partiyasının lideri Marsel Çolaku öz vəzifəsindən istefa verib.

Son illər Avropanın bir çox dövlətlərində olduğu kimi, Rumıniyada da sağ millətçi partiyaların sosial bazası güclənib. Bu, təbii ki, hər bir ölkədə seçkilərin nəticələrinə də öz təsirini göstərir. Rumıniyada prezidentliyə iddiaçı Ceorce Simion qatı millətçi siyasi baxışları ilə seçilir. Yeri gəlmişkən, o, ABŞ prezidenti Donald Trampın qızğın tərəfdarlarındandır. Xaricdə yaşayan rumınların çoxu məhz C.Simionu dəstəkləyiblər.

C.Simion bugünlərdə seçicilərlə görüşləri zamanı bildirib ki, son, həlledici turda da qələbə qazanarsa, o zaman özünün müəllimi adlandırdığı, qatı millətçi Kelin Corceskunun hakimiyyətin ən yüksək pilləsində təmsil olunmasını təmin edəcək. Qeyd edək ki, Rumıniyada ötən ilin sonunda keçirilən prezident seçkilərində məhz rusiyapərəst siyasətçi K.Corcesku 1-ci yerə çıxmışdı. Lakin həmin seçkilərin nəticələri ləğv olunmuşdu.



Rumıniyanın hakimiyyət dairələri iddia edirlər ki, bir çox dövlətlər, xüsusilə də Rusiya o zaman qeyri-qanuni şəkildə prezident seçkilərinin nəticələrinə müdaxilə ediblər. Onların fikrincə, bu, kiberhücumlar, mediaya və sosial şəbəkələrə gizli yollarla saxta informasyaların sızdırılması və bu qəbildən olan digər təxribatlar vasitəsilə olub. Rəsmi Moskva isə bu ittihamları təkzib edib.

Budəfəki seçkilərin favoriti C.Simion etnik baxımdan rumınlara çox yaxın olan Moldovanın bu ölkəyə birləşdirilməsinin tərəfdarı kimi çıxış edir və məhz buna görə də onun qonşu ölkənin ərazisinə gəlişi qadağan edilib. O, Rusiya iqtidarını Ukrayna torpaqlarını işğal etdiyinə görə ittiham edir, eyni zamanda Ukraynaya silah verilməsinin də əleyhinə çıxış edir. Bu səbəbdən C.Simion Ukraynada da "persona non-qrata", yəni "arzuolunmaz şəxs" elan edilib. Bundan başqa, C.Simion Aİ-nin bürokratik bir quruma çevrildiyini vurğulayaraq bu qurumda islahatların qaçılmaz olduğunu bildirir.

C.Simionun rəqibi Nikuşor Dan isə, əksinə, avropapərəst baxışları ilə tanınır və ölkəsinin qitənin əsas qurumlarında fəaliyyətinin gücləndirilməsinə çalışacağını vəd edir. N.Dan, həmçinin 3 il əvvəl Rusiyanın hərbi müdaxiləsinə məruz qalmış Ukraynaya maliyyə və hərbi dəstəyin artırılmasının tərəfdarıdır.

Rumıniya Qərbdən Ukraynaya silah-sursatın çatdırılmasında tranzit ölkə rolunu oynayır. Onun ərazisində ABŞ-ın raket hücumlarından müdafiə sistemi, eləcə də 3 hərbi aviabazası mövcuddur. Orada yerləşdirilən NATO təyyarələri Ukrayna və Moldovaya qədər əraziləri, eləcə də Qara dəniz üzərində hava məkanlarını nəzarətdə saxlayır.

Məlumdur ki, Ukrayna istehsal etdiyi taxılın 70 faizini Rumıniyanın Qara dəniz sahillərindəki ərazi suları vasitəsilə ixrac edir. Rumın pilotlar isə "F-16" təyyarələrindən səmərəli istifadə etmələri üçün ukraynalı həmkarlarına təlimlər keçirlər. Beləliklə, Avropa İttifaqı, eləcə də Ukrayna Rumıniyada N.Danın seçilməsini arzulayır. Amma son sözü məntəqələrə səs verməyə gələn seçicilər deyəcəklər.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Ağdam Muğam Mərkəzi: “Qarabağ bülbülləri”nin sənət yuvası



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam Muğam Mərkəzinin açılışında iştirakı yaddaşıma əbədi həkk olunan hadisələrdən oldu. Mərasimin ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə təsadüf etməsi bu anı daha da rəmzi və əlamətdar etdi.**

Yeni istifadəyə verilmiş Muğam Mərkəzi ilə tanışlıq və açılışdan sonra keçirilən konsert proqramı çərçivəsində Prezident İlham Əliyev və Mehriban Əliyevanın Ağdam ziyalıları, incəsənət xadimləri və müharibə veteranları ilə səmimi söhbəti bütün iştirakçılarda xoş təəsürat yaratdı. Mənim də cənab Prezidentlə görüşüm, ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə, xüsusilə Qarabağ bölgəsində reallaşdırılan mədəni və sosial layihələrə görə dövlət rəhbərliyinə təşəkkürümü çatdırmaq üçün əla bir fürsət oldu.

Qeyd etməliyəm ki, mənim bir alim kimi formalaşmağımda ümummilli lider Heydər Əliyevin təhsil siyasətinin mühüm rolu olub və onun respublikaya 1-ci rəhbərliyi dövründə həyata keçirdiyi təhsil siyasəti nəticəsində mən də bir sıra azərbaycanlı gənclər kimi keçmiş sovet respublikalarının nüfuzlu ali məktəblərində oxumaq imkanı qazanmışam. O dövrdə keçmiş SSRİ-nin aparıcı ali məktəblərindən biri olan A.A.Jdanov adına Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin Psixologiya fakültəsinə qəbul olundum. Heydər Əliyev həmin dövrdə xaricdə təhsil alan azərbaycanlı tələbələrlə mütəmadi görüşlər keçirir, onların təhsil şəraiti və qayğıları ilə yaxından maraqlanırdı. Bu görüşlərin birində mən də iştirak etmişdim. İndi də həmin anı böyük ehtiram və qürur hissi ilə xatırlayıram.

Zaman dəyişsə də, dövlətin elmə, mədəniyyətə və ziyalılara verdiyi yüksək dəyər aktuallığını qoruyur, bu ənənənin müasir dövrdəki təzahürləri müxtəlif tədbirlərdə aydın şəkildə özünü göstərir. Ağdam Muğam Mərkəzində keçirilən tədbir də bunun bir nümunəsidir.

Konsert proqramı zamanı balaca xanəndələrin ifasında səslənən “Qarabağ şikəstəsi” Prezident İlham Əliyevi çox kövrəltdi. Dövlət başçısı bu anı ayaq üstə alqışlayaraq uşaqların ifasına dərin hörmətini bildirdi. Bu emosional reaksiya, fikrimcə, hər şeydən əvvəl milli hissin, Qarabağla bağlı ağrılı tariximizin və bu gün yenidən dirçələn torpaqlarımızın doğurduğu dərin duyğuların ifadəsi idi. Yalnız milli mədəniyyətə sevginin ifadəsi deyil, həm də ictimai emosional yaddaşı oyadan, milli qüruru canlandıran və birliyimizi gücləndirən simvolik bir məqam idi.

Prezidentin bu səmimi münasibəti həm Qarabağın tarixi əhəmiyyətini, həm də azad olunmuş torpaqlarda gedən bərpa-quruculuq işlərinin vüsətini cəmiyyətə çatdırdı. Bu, həm də ziyalıların, sənət adamlarının və ümumilikdə milli-mədəni elitanın üzərinə düşən tarixi missiyanı bir daha xatırladır: keçmişi unutmamaq, bu günə dəyər vermək və gələcəyə milli ruhla addımlamaq.

Prezidentin çıxışlarında dəfələrlə vurğulandığı kimi, Azərbaycan ziyalısı milli kimliyin və mənəvi dayaqların qoruyucusudur. Bu baxımdan, ziyalıların elmi baxışları və vətəndaşlıq mövqeyi dövlət siyasətinin formalaşmasında mühüm rol oynayır. Prezident Qarabağın bərpasını yalnız fiziki-infrastruktur baxımından deyil, milli ruhun və tarixi yaddaşın dirçəldilməsi kontekstində dəyərləndirir. Ağdam Muğam Mərkəzinin açılışı da məhz bu mənəvi yüklə reallaşdırılıb. Təsadüfi deyil ki, dövlət başçısı buradakı çıxışında dedi: “Bu gün azad Qarabağda çıxış etmək böyük xoşbəxtlikdir. Bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq”.

Prezident İlham Əliyev bu siyasəti ilə ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu qətiyyətlə davam etdirir. Qarabağda həyata keçirilən hər bir layihə, tikilən hər bir bina, bərpa olunan hər bir abidə bu siyasi xəttin canlı təcəssümüdür. Heydər Əliyev yolu yalnız idarəçilik prinsipi deyil, həm də milli-mənəvi dəyərlərin qorunması, elmə və ziyalılara yüksək münasibətin yoludur. Bu gün cəmiyyətimizin psixoloji ehtiyaclarından biri olan milli qürur və gələcəyə inam hissinin məhz bu kimi təşəbbüslərlə möhkəmləndirilməsi çox vacibdir.

Ağdam Muğam Mərkəzi Azərbaycanın muğam irsinin tədrisi, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından strateji əhəmiyyət daşıyır. Burada yaradılmış şərait həm peşəkar musiqiçilər, həm də gənc istedadlar üçün geniş imkanlar açır. Bu gün Azərbaycan mədəniyyəti yalnız paytaxtla məhdudlaşmır. Prezidentin siyasi iradəsi nəticəsində mədəniyyətin regionlara qaytarılması, xüsusilə işğaldan azad olunmuş ərazilərdə bu sahənin dirçəldilməsi dövlətin mədəniyyət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Məhz bu baxımdan Ağdam Muğam Mərkəzi kimi layihələr təkcə bir binanın açılışı deyil, həm də Azərbaycan xalqının yaddaşına, ruhuna və kimliyinə qayıdışın parlaq simvoludur.

*İmdad BAYRAMOV,*
*Psixologiya elmləri doktoru*

# Güneyli şairlər də “Xalq əmanəti”nə daxil edildi

**“Xalq” Bankın “Xalq əmanəti” layihəsi çərçivəsində sayca 25-ci kitab Güney Azərbaycan poeziyasına həsr olunub.**

Bu nəşrdə müxtəlif ədəbi təmayül və cərəyanları XX əsrin əvvəllərindən günümüzə qədərki dövrü təmsil edən 50 güneyli söz ustasının seçmə şeir və poemaları, qəzəlləri toplanıb. Müəlliflərin sırasında adını Azərbaycan ədəbiyyatı tarixinə yazmış böyük şairlərimizlə yanaşı, istedadlı gənc ədiblərin də yaradıcılıq nümunələri də yer alıb. XX–XXI əsrlər bütöv Azərbaycanının ədəbi mənzərəsini görmək üçün vasitə olaraq ərsəyə gələn “Güney Azərbaycan poeziyası. Seçmələr” kitabı həm də keşməkeşli tariximizi əks etdirir.

Qeyd edək ki, “Xalq əmanəti” layihəsini “Xalq” Bank 2010-cu ildən həyata keçirir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədi daşıyır. Bu çərçivədə Azərbaycan, ingilis, rus dillərində çap olunan kitablar ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına, eləcə də sənətsevərlərə hədiyyə olunur.

“Xalq” Bank bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Şamo Abasov, Cahid Camal, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət bədii al-




bomlar nəşr olunub və sərgilər təşkil edilib. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiq və Hökumə Billurinin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin “Azərbaycan sikkələri” kitabı, “Aşıq ədəbiyyatı antologiyası” üçcildliyi, dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində “Bütün əsərləri” nəşrlərini “Xalq əmanəti”nə daxil edilib.

*T.RÜSTƏMLİ*
*XQ*

# Həftənin mədəniyyət təqvimi

## Əbdürrəhim bəy Haqverdiyev – 155



Görkəmli yazıçı, dramaturq, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas Əbdürrəhim bəy Əsəd bəy oğlu Haqverdiyev 17 may 1870-ci ildə Şuşa qəzasınınm Ağbulaq kəndində dünyaya göz açıb. Peterburqda ali təhsil alıb. Azərbaycan tarixində ilk orkestr rəhbəri kimi tanınır. “Leyli və Məcnun” operasının premyerasının dirijoru, Teatr Şurasının təsisçisi və ilk rəhbəri, “Molla Nəsrəddin” jurnalının yazarlarından biri olub. “Dağılan tifaq”, Ac həriflər”, “Bəxtsiz cavan”, “Pəri cadu”, “Xəyalat” kimi klassik əsərlər, “Marallarım” silsilə hekayələrini yazıb. Ə.Haqverdiyev Azərbaycanın “Tədqiq və Tətəbbö” cəmiyyətində əvvəlcə sədr müavini, daha sonra (1923–1925-ci illərdə) sədr vəzifəsində çalışıb. “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb. 1933-cü ilin dekabrında 63 yaşında dünyasını dəyişib.

## Midhət Ağamirov – 105



Fəlsəfi fikir tarixinin tədqiqi, təbliği və tədrisinin görkəmli nümayəndəsi, Azərbaycan EA-nın müxbir üzvü, Əməkdar mədəniyyət işçisi və Əməkdar elm xadimi Midhət Mir Musa oğlu Ağamirov 15 may 1920-ci ildə Şuşada doğulub. Dövrünə görə elmin bir çox sahələrində məşhur olan Mir Mövsüm Nəvvabın oğul nəvəsidir. Əvvəllər müxbirlik edib, sonra elmi işlə məşğul olub. Ömrünün sonuna kimi akademiyanın Fəlsəfə və Hüquq İnstitutunda şöbə müdiri vəzifəsində işləyib. 10 monoqrafiyası çap edilib. Bunlar “Mirzə Ələkbər Sabirin dünyagörüşü”, “Azərbaycan ictimai fikrində milli məsələ”, “Azərbaycanda marksist-leninçi ideologiya uğrunda mübarizə tarixindən”, “Abdulla Şaiqin dünyagörüşü”, “Məhəmməd Hadinin fəlsəfəsi”, “Azərbaycan romantiklərinin dünyagörüşü”, “Azərbaycanda qeyri-marksist ideya cərəyanlarının tənqidi” və digər əsərlərdir.

## Arif Quliyev – 75

Teatrsevərlərin sevimli aktyoru, Xalq artisti Arif Quliyev 1950-ci il mayın 16-da Əli-Bayramlı (indiki Şirvan) şəhərində ana-



dan olub. Bakı Mədəni-Maarif Texnikumunu və İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu fakültəsini bitirib. Şərbətəli (S. Dağlı, C.Cahangirov, “Təzə gəlin”), Salyanski (F.Əmirov, M.Əlizadə, “Gözün aydın”), Əli (M.Şamxalov, Z.Bağırov, “Qaynana”), Dursun (S.Rüstəmov, S.Rüstəmov, “Durna”), İbişov (Ş.Qurbanov, S.Ələsgərov, “Özümüz bilərik”), Dursunov (S.Rəhman, E.Sabitoğlu, “Hicran”), Hambal (Ü.Hacıbəyov, “Məşədi İbad”), Səbzəli (M.Haqverdiyev, “Məhəbbət, şeytan və ağ ölüm”) kimi obrazlar onun komediya janrında yaratdığı uğurlu rollardan bir qismidir. Yaradıcılığında Azərbaycan Televiziyasının tamaşaları da geniş yer tuturdu. Xalq artisti 7 may 2021-ci il tarixində koronavirus səbəbindən vəfat edib.

*XQ*

**Baxış bucağı**

# Çağdaş ədəbiyyatımız niyə dünyada tanınmır?




**Ədəbiyyat sərhədləri aşanda məşhur olur, o zaman yazıçı–nəşriyyat–oxucu üçbucağı tamamlanır, tərəflərin arasında möhkəm bağlar yaranır. Təəssüf ki, bu gün müasir Azərbaycan ədəbiyyatı özünəməxsus estetik və fəlsəfi qatlarla zənginləşsə də, onun sərhədləri bir çox hallarda milli məkanla məhdudlaşır. Yəni biz yazırıq, çap edirik, bəzən müzakirə də edirik, amma oxunmur, ən azı, xaricdə oxunmur. Bəs problem nədədir?**

Problem təkcə yazıçının tanınmamasında deyil. Burada dediyimiz üçbucaqda pozulmuş əlaqələr sistemi var. Zəncirin bir halqası qırıldıqda, ədəbi əsər, olsa-olsa, sadəcə yerli “mədəniyyət hadisəsi”nə çevrilir, bəşəri hadisə olmaq imkanı isə itir.

Azərbaycan yazıçılarının əsərləri zaman-zaman xarici dillərə tərcümə olunub. Ancaq bu çevirmələr, əsasən, dövlət dəstəyi ilə ərsəyə gəlir, çox vaxt peşəkar redaktə və yayım siyasətindən xali olur. Hətta yaxşı tərcümələr də sonda bazar və auditoriya tapılmadığı üçün yaddan çıxır. Beləliklə, kitab bir neçə festivalda nümayiş olunur, sonra isə kitabxana arxivinin bir hücrəsində ömrünü başa vurur.

Hər hansı bir əsərin mükəmməl yazılması kifayət etmir – onu görünən, oxunan və müzakirə olunan hala gətirmək üçün həm tərcüməçinin mədəni çevikliyi, həm nəşriyyatın yayım və əlaqə imkanları, həm də dövlətin strateji yanaşması lazımdır.

Tərcüməçiyə gəlincə isə deməliyik ki, o, sadəcə dildən-dilə keçid edən deyil, bədii əsərin bir növ 2-ci müəllifidir. Yəni tərcüməçi nə qədər savadlı olsa da, ədəbi dilin ruhunu duymursa, kontekstdən doğan mənanı çevirməyi bacarmırsa, əsər bədii çəkisini itirəcək. Bu gün bizdə ədəbi tərcümə sahəsində peşəkar kadrlar çox deyil. İngilis, fransız və ya alman dillərində Azərbaycan ədəbiyyatını yüksək səviyyədə təqdim edə biləcək tərcüməçilər barmaqla sayılacaq qədərdir. Çünki bu, sadəcə linqvistik yox, mədəniyyətlərarası düşüncə çevikliyi tələb edən sahədir. Tərcüməçi həm müəllifi, həm oxucunu, həm də dövrü anlamalıdır. Tanıtım da vacibdir, əgər o yoxdursa, tərcümə də faydasızdır. Elə dilimizə də çox vaxt xarici ədəbiyyatı rus dili vasitəsilə çeviririk ki, bu zaman da orijinalın dadı-duzu ikiqat azalır.

Bir çox hallarda yazarların tərcümeyi-hallarında, vikipedik məlumatlarda onların əsərlərinin filan-filan xarici dildə çap olunduğu bildirilir. Amma bu hələ onun xaricdə oxunacağı anlamına gəlmir. Mütləq şəkildə ədəbi agentliklər, nüfuzlu ədəbiyyat portalları, festival iştirakları, kritik yazılar və qlobal oxucuya yönəlmiş kampaniyaların faydalı iş əmsalı yüksəldilməlidir.

Müsbət nümunələr də yetərli qədərdir. Məsələn, Gürcüstanda dövlət dəstəyi ilə formalaşdırılan “Books from Georgia” (“Gürcüstandan kitablar”) proqramı nəticəsində ədəbiyyatları Avropanın bir çox ölkəsində çap olunur, məşhur Frankfurt, London və Paris kitab yarmarkalarında fəal şəkildə təbliğ edilir. Əlbəttə, bizim də “Literature from Azerbaijan” (“Azərbaycandan kitablar”) tipli davamlı və institusional platformaya ehtiyacımız var.

Ən yaxşı halda ən yaxşı yazıçı əsər yazır, amma kim tərcümə edir, kim yayır? Bax, bu sualın cavabı çox vaxt qeyri-müəyyəndir. Yazıçı həm yazmalı, həm tərcümə ilə maraqlanmalı, həm xarici əlaqələr qurmalı, həm də satış qayğısı çəkməlidirmi? Bu, yaradıcılığın mahiyyətinə olduqca zidd yükdür. Burada dövlətin və ya qeyri-hökumət təşəbbüslərinin rolu böyükdür. Ədəbi fondlar, mükafatlar, mükəmməl tərcümələrə dəstək proqramları, tərcüməçi məktəbləri yaradılmalıdır. Tərcümə prosesinin təsadüfi və ya şəxsi əlaqələr üzərindən qurtulub peşəkar sistemə keçməsi vacibdir.

Bəs kimlər xaricdə tanına bilər? Bəzən soruşurlar: “Yaxşı da, hansı yazıçını xaricə tanıdaq?” Bu da problemli yanaşmadır. Yazıçının tanınması üçün onu əvvəlcə özümüz tanımalı, sonra strateji baxımdan təqdim etməliyik. Yusif Səmədoğlunun “Qətl günü”, Mövlud Süleymanlının “Şəhərin qırağında ev”, ya da çağdaş yazarlardan Elçin Hüseynbəylinin, Günel Mövludun, Şərif Ağayarın əsərləri beynəlxalq oxucuya təqdim edilə biləcək bədii tutumdadır. Yəni problem yazıçıda deyil, məhsulun paketlənməsi və bazara çıxarılmasındadır.

Deməli, ədəbiyyat yalnız yazmaq deyil, həm də çatmaqdır, çatdırmaqdır. Əgər oxucuya lazımınca çatmırsa, onda ədəbiyyat öz dövrünə şahidlik edə, mənəvi aləm salnaməsinə çevrilə bilmir.

**Vilayət Quliyev, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru**



– Çox mürəkkəb bir məsələyə toxunursunuz. Tanınmaq üçün yalnız öz ölkəndə deyil, ən müxtəlif ölkələrdə insanların hisslərinə, duyğularına toxuna bilən mövzulara müraciət etmək lazımdır. Yəni məhəlli mövzularla, hətta ən nəfis şəkildə çap olunmuş kitab, ən yaxşı tərcümə edilmiş əsər də ölkə hüdudlarından kənarda özünə böyük oxucu kütləsi qazana bilmir. Ən ümdə məsələ ümumbəşəri mövzulardır. Niyə, məsələn, Hüseyn Cavid çox yerdə tanınır, oxunur, diqqətlə qarşılanır (Təəssüf ki, heç onu da böyük dünya miqyasına layiqincə çıxara bilməmişik)? Çünki onun toxunduğu məsələlər yalnız azərbaycanlının, rusun, ləzginin, gürcünün problemi deyil, insanlığın problemidir. Bu, 1-ci şərtdir, yəni ədəbiyyat adamları kiçik mövzular üzərində yox, ümumbəşəri mövzular üzərində işləməlidirlər.

2-cisi, müasir dövrdə yazıçıdan böyük intellektuallıq tələb olunur. Yəni yazıçı, deyək ki, məhdud kənd həyatını öyrənib bu həyatdan əsər yazmaqla çox uzağa gedə bilməz. İnsanları düşündürən, maraqlandıran, onların cavab axtardıqları qlobal məsələlərə toxunmağa çalışmalıdır. Sonra da milli ədəbiyyatın peşəkar tərcüməsi mühüm şərtlərdən biridir. Etiraf edək ki, biz Cəlil Məmmədquluzadəni, Hüseyn Cavidi yaxşı tərcümə edib dünya miqyasına çıxara bilməmişik. Mən Macarıstanda işləyəndə həm Mirzə Cəlilin, həm də Haqverdiyevin hekayələrini və Axundovun komediyalarını macar dilinə tərcümə elətdirdim. Orda bir Maria Kineş var, türkoloq-alimdir – vaxtilə Bakı universitetinin Azərbaycan şöbəsini bitirib. AYB-nin üzvüdür – o çevirdi. Sonra nə qədər rəylər gəldi ki, bu yazarlar sanki macar insanının probleminə toxunublar, macar kəndinin, macar obasının məsələsini gündəliyə çıxarıblar, 100 il əvvəl bizdə də bu məsələlər vardı. Yazıçının, yenə deyirəm, dünya miqyasına çıxması üçün bu lazımdır. Yaxşı tərcümə lazımdır, nəfis nəşr lazımdır, sanballı əsərlər yaxşı təbliğ olunmalıdır. Biz, təəssüf ki, ədəbiyyatımızı lazımınca təbliğ eləyə bilmirik. Çünki bu təbliğat üçün mühüm olan şərtlər də yoxdur, yəni xarici dilləri bilən, xarici auditoriyada onu tanıda bilən ədəbiyyatçılar, tənqidçilər azdır.

Düzdür, inkişaf edirik, yeni imzalar gəlir, yeni kitablar yazılır. Və deyim ki, roman yazmaq da son vaxtlar asan bir işə çevrilib, amma bu romanların ömrü çox qısa, vəzni və çəkisi də çox yüngül olur. Buna görə ədəbiyyata çox ciddi yanaşmaq lazımdır, ədəbiyyat tək bir insanın hisslərini, duyğularını ifadə edəndə güclü olmur, o gərək fərdin duyğuları üzərindən bütöv bir millətin, bəlkə də bütün bəşəriyyətin hisslərini, duyğularını tərənnüm etməyi, ortaya qoymağı bacarsın. Təəssüf ki, bizdə, hələ ki, belə əsərlər yoxdur. Oxucularımız da, təəssüf ki, belə əsərlərin yer almasına stimul vermirlər, onlar daha çox asan oxunan əsərlər axtarırlar. Bu kompleks bir məsələdir.

*Əli NƏCƏFXANLI*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 102 (30796) 18 may 2025-ci il, bazar

İdman

## Taekvondoçularımızın 3 Bolqarıstan medalı



**Azərbaycanın gənc taekvondoçuları Bolqarıstanın paytaxtı Sofiyada keçirilən G3 kateqoriyalı "Prezident Kuboku" yarışında 3 medal qazanıblar.**

Taekvondo Federasiyasından "XQ"yə bildiriblər ki, Elcan Əliyev bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib olub. Yunis Hüseynov və Fuad Məhərrəmli isə bürünc medallara yiyələniblər.

## Güləşçilərimiz fəxri kürsüdə



**Azərbaycan komandası İranın Behşehr şəhərində keçirilən sərbəst güləş üzrə "Necad Haşimi kuboku" turnirini 5 medalla başa vurub.**

Yarışın sonuncu günündə U20 milli komandanın 3 üzvü fəxri kürsüyə qalxıb. Yığmamızın üzvlərindən Anar Cəfərli (92 kq) və Yusif Dursunov (125 kq) gümüş, Nurlan Ağazadə (70 kq) bürünc medal qazanıb.

Xatırladaq ki, bundan əvvəl Omar Gülməmmədov (74 kq) 2-ci, Sədrəddin Həsənov (57 kq) isə 3-cü yerə sahib olmuşdular.

## Velosipedçimizin Qazaxıstan uğuru



**Azərbaycan velosipedçisi Məryəm Hüseynova Astanada keçirilən Qazaxıstanın açıq çempionatında bürünc medal qazanıb.**

Trek velosipedi üzrə yığmamızın üzvü 2009–2010-cu il təvəllüdlü 38 idmançının omnuim yarışında 200 metr məsafəyə sprint üzrə mübarizəsində 3-cü yeri tutub.

Eyni yaş kateqoriyasında çıxış edən digər təmsilçimiz Çingiz İsayev isə 40 iştirakçı arasında 4-cü nəticəni göstərib.

*LQ URBANOVA*
*XQ*

*✓ Azərbaycan Tibb Universitetinin rezidenturası tərəfindən Əmirov Fariz Qabil oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.*

Turan abidələri

# Türkiyənin Avropa qapısı – Ədirnə

## Şəhər Osmanlı zamanından əvvəl Bizansın paytaxtı olub





**Türk xalqları tarixən məskunlaşdıqları geniş coğrafi ərazidə orijinal memarlığı ilə seçilən çox sayda şəhərlər salıblar. Bu sivil məskənlərin tarixi, mədəniyyəti, həyat tərzi barədə "Turan abidələri" silsiləsindən yazılar dərc etməyə başlayırıq. İlk səyahətimiz Türkiyənin Rumeli adlanan ərazisindəki qədim və gözəl Ədirnəyədir.**

Türkiyənin Mərmərə bölgəsində yerləşən Ədirnə şəhəri özündə bir neçə imperiyanın tarixindən qopub gələn əks-sədaları yaşadır. Buradakı qədim mədəniyyət abidələri, park və meydançalar, istirahət guşələri ilboyu həm yerli, həm də əcnəbi ziyarətçilərə öz zənginliyini sərgiləyir.

Bir zamanlar Bizans imperiyasının paytaxtı olmuş Ədirnə (Andrianopol) "Türkiyənin Avropaya açılan qapısı" da adlandırılır. Bu şəhər Roma, Bizans və Osmanlı imperiyalarının maddi və mənəvi mirası ilə tanış olmaq üçün zəngin bir xəzinə timsalındadır. Eyni zamanda, ətrafdakı füsunkar təbiət mənzərələri bu gözəlliyi tamamlayır.

Səyahətçilər Ədirnəyə İstanbul Hava Limanından avtomobillə 2,5 saat yol qət edərək çata bilərlər. Onlar üçün burada dərhal tarixə retro səyahət başlayır. Ədirnəni 1361-ci ildə Sultan I Murad fəth edib. Burada bir-birindən gözəl məscid və mədrəsə binaları ucaldılıb və onların çoxu hazırda maddi mədəniyyət abidələri kimi qorunur.

Ədirnənin ən görməli yerlərindən biri məşhur memar Sinanın şah əsəri olan Səlimiyə məscididir. Bu tarixi abidə UNESKO-nun Dünya İrsi siyahısına daxil edilib. Original arxitekturası ilə seçilən məscid Osmanlı memarlığının zirvələrindən biri sayılır. Binanın ətrafında bir neçə məktəb və xəstəxana inşa edilib. İstanbuldakı Topqapı Sarayına qədər Osmanlı sultanlarının iqamətgahı olmuş Ədirnə Sarayı (el arasında "Yeni Saray" adlandırılır-müəllif) turistlərin ən çox maraq göstərdikləri məkanlardandır. Nəhəng xəttatlıq yazıları ilə tanınan Əski (Köhnə) məscid də Ədirnə ustalarının zəngin bədii irsini nümayiş etdirir.

Ədirnənin baxmalı, görməli tarixi abidələri arasında diqqət çəkən məkanlardan biri də II Bəyazid Külliyesi daxilində yerləşən Sultan II Bəyazid Sağlamlıq Muzeyidir. Maraqlıdır ki, 1488-ci ildə əsası qoyulan bu keçmiş Osmanlı xəstəxanasında xəstələr pulsuz müalicə alıblar.

Muzeyin direktoru Ənvər Şengül, adətən, ziyarətçilərə bu müalicə mərkəzi barədə özü məlumat verməyi sevir. Hər dəfə də qeyd edir ki, burada müalicə prosesində musiqidən şəfaverici vasitə kimi istifadə ediblər. Ruha qida verən musiqi yaxınlıqdakı bağların ətirli qoxuları ilə "birləşərək" insanlara şəfa bəxş edib. Yeri gəlmişkən, musiqidən müalicə vasitəsi kimi türklərin ulu babaları səlcuqlar da istifadə ediblər.

Deyilənlərə görə, Ədirnəni əhatə edən ərazilərin təbii gözəlliklərinə heyran qalmamaq qeyri-mümkündür. Bura təşrif buyuranları şəhərin sahilinə sığındığı Saros körfəzi, Tunca və Meriç çaylarının günəşin şəfəqləri altında sayrışan suları, sadəcə, valeh edir. Bundan əlavə, Musabəyli bağı və Qala Gölü Milli Parkı gəzinti və istirahət üçün mükəmməldir.

Ədirnə tarixi yerləri və təbii gözəllikləri ilə yanaşı, ustad sənətkarları ilə seçilib və sevinib. Bu gün də ziyarətçilər şəhərdə yerli sənətkarların əl işləri ilə tanış ola bilərlər və buradakı dükanlardan özləri üçün xoş bir xatirəyə çevriləcək suvenirlər ala bilərlər.

Ən başlıcası, Ədirnə qədim olduğu qədər də müasirdir. Burada rahat infrastruktur yaradılıb. Şəhər sakinləri turistlərə qarşı çox nəzakətlidirlər. Buna görə də Ədrirnəyə bir dəfə gələn bir də gələcəyəm deyir. Hamıya qismət olsun!

*Məsaim ABDULLAYEV*
*XQ*

# Şəkidə yeni şəlalə

**AMEA-nın Şəki Regional Elm Mərkəzi Şin kəndindən 7-8 kilometr şimal-şərqdə, Birkaş dərəsində, dəniz səviyyəsindən 1290 metr hündürlükdə yerləşən yeni şəlalə qeydə alıb.**



Hündürlüyü 18, eni 1 metr olan şəlalənin ətrafı boz qayalıq olduğu üçün şəlaləyə "Boz qaya" adı verilib.

Mərkəzin ekoloji coğrafiya şöbəsinin müdiri Qafqaz Ağabalayev vurğulayıb ki, şəlaləyə gedən yol çay yatağı boyu yarğanvari dərədən keçir, ətraf isə sıx meşə ilə əhatə olunub.

*XQ*

HAVA

## Dəyişkən buludlu, arabir yağışlı bir bazar günü...



Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən xəbərə görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 14-16° isti, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunundan 759 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 14-18° isti, gündüz 25-30° isti, dağlarda gecə 3-8° isti, gündüz 12-17° isti olacaq.

*QQ ASIMOV*
*XQ*




## "Avroviziya-2025" Bazeldə başa çatıb

**İsveçrənin Bazel şəhərində "Avroviziya-2025" mahnı müsabiqəsinin ikinci yarımfinalı keçirilib. Çıxışlar başa çatdıqdan dərhal sonra keçirilən tamaşaçı səsverməsinin nəticələrinə əsasən, ikinci yarımfinaldan sonra daha 10 finalçı müəyyənləşib.**



Dünən Bazel şəhərində keçirilən finalda 26 ölkə mübarizə aparıb. Fransa, Almaniya, İspaniya, İtaliya, Böyük Britaniya və ev sahibi İsveçrə isə birbaşa finala çıxıblar.

Qəzetimiz dünən gecə çapa təhvil veriləndə Bazeldə müsabiqə hələ də davam edirdi. Qaliblər barədə növbəti nömrədə məlumat verəcəyik.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 982
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00